EVDƏ QAL, SAĞLAM QAL!

**Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib**



Bax 2

**Çin KİV-ləri Heydər Əliyev Mərkəzinin aksiyasını diqqətdə saxlayıb**



Bax 4



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 059 (6024) 11 aprel 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycanın uğurlu gələcəyini təmin edən LİDER

*Prezident İlham Əliyev: “Azərbaycan sosial dövlətdir və bizim bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır”*



## Pakistan qondarma “seçkilər”i tanımır

Bax 4



*2020-ci il martın 31-də işğal olunmuş Dağlıq Qarabağda keçirilmiş qondarma “prezident və parlament seçkiləri” beynəlxalq hüququn və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin açıq-aşkar pozulması deməkdir. SİA-nın məlumatına görə, bunu Pakistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Aişə Faruki brifinq zamanı deyib.*

## Koronavirus Neymarı da “vurdu”



Koronavirus pandemiyasının klublara vurduğu iqtisadi zərbəyə görə Fransada futbolçuların maaşı azaldılacaq. Qol.az ESPN-ə istinadən xəbər verir ki, çempionatın yayımçı şirkəti olan “Canal+” və “beIN Sports”un klublara ödəmələri dayandırmasından sonra bununla bağlı hökumətə təklif göndərilib.

Bax 16

## Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağda keçirilən qondarma “seçkiləri” qətiyyətlə pisləyib

Bax 9



Türkiyə KİV-lərində martın 31-də Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ keçirilmiş qondarma “seçkilər”in beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə pislənməsi ilə bağlı analitik məqalə yayılıb.

AZƏRTAC-ın Türkiyə bürosunun rəhbəri Sabir Şahtaxtının müəllifi olduğu məqalədə Ermənistanın Azərbaycana qarşı davam edən işğalçılıq siyasəti qətiyyətlə pislənir, bu hərbi təcavüz Qafqazda sülhə və sabitliyə təhdid kimi dəyərləndirilir.

Bax

Bax 16



## Dünyada koronavirusa yoluxanların sayı 1,6 milyonu ötüb

*ABŞ-ın Johns Hopkins Universitetinin apardığı hesablamalara görə, dünyada koronavirus infeksiyasına yoluxanların sayı 1,6 milyonu keçib.*

## Tramp kəşfiyyatın xəbərdarlığını “feyk” adlandırdı: “Səhv edirlər!”

Bax 12

ABŞ prezidenti Donald Tramp Amerika kəşfiyyatının 2019-cu ildə koronavirus pandemiyası ilə bağlı verdiyi informasiyanın feyk olduğunu bildirib. O, bu barədə özünün Twitter səhifəsində yazıb. “Bu feyk xəbərləri ABC ABC News tərəfindən verilib. Onlar yalan xəbəri yayanda da bilirdilər ki, səhv edirlər!”, deyə Tramp yazıb.

**Həyazıslığın son həddi**



Bax 12

**Alən Karbonel: Azərbaycan hökuməti mövcud böhranla bağlı müstəsna tədbirlər görüb**



Bax 9

**Rusiya XİN: Rəsmi Moskva Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır**



Bax 4

# Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib



*“Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır”*

Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunub. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı:**

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru.

Əziz dostlar.

Mən sizin hamınızı səmimiyyətlə salamlayıram. Azərbaycanın sədr ölkə kimi irəli sürdüyü Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədiyiniz üçün təşəkkürümü bildirirəm. Bu təşəbbüsün irəli sürülməsindən bir neçə gün sonra Zirvə görüşünün təşkili göstərir ki, Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulubdur.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesusa Zirvə görüşünə qoşulduğuna görə minnətdarlığımı bildirirəm. Zirvə görüşünün gündəliyi təqdim olunmuşdur. Gündəliklə bağlı hər hansı təklifiniz yoxdursa, işimizə başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü Bakıda keçirildi. Azərbaycan bu Zirvə görüşündə sədrliyi öz üzərinə götürdü. Dərhal Azərbaycan sədr ölkə kimi fəaliyyətə başladı. Sədrlik etdiyimiz dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylər göstəririk.

Koronavirus xəstəliyi sərhəd tanımayaraq dünya boyunca yayılmış və faciəvi nəticələrə gətirib çıxarmışdır. Pandemiya səbəbindən ölkələrimizdə və dünyada həyatını itirənlərə rəhmət diləyir, onların yaxınlarına başsağlığı verir və yoluxanların tezliklə şəfa tapmasını arzulayıram.

Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir. Bu, bizim nümunəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.

Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atmışdır. Məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılmışdır. Mənim Sərəncamımla bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılmışdır. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılmış, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilmişdir. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılmışdır. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir.

Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Biz mart ayının əvvəlində təşkilatın mütəxəssislərini Azərbaycana dəvət etmişik. Qısa müddətdə dəvətimizə cavab verilmişdir. Belə ki, 9-13 mart tarixlərində təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olmuşdur. Onlar ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermişlər. Ekspert missiyasının hazırladığı hesabatda da öz əksini tapmış tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınır.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

On altı il ərzində Azərbaycanın səhiyyə sistemində köklü işlər görülmüşdür, həkimlərin peşəkarlıq səviyyəsi yüksəlmişdir, 750-dən çox səhiyyə ocağı tikilmiş və ya tam təmir olunmuşdur. Hər il Azərbaycanda 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir.

Koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Bu günlərdə 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və “Yeni klinika” adlanan xəstəxanası onların ixtiyarına verilmişdir. Bu ilin mart ayında ölkəmizin 3 şəhərində üç yeni xəstəxana istifadəyə verilmişdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilmişdir. Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

Həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə xidmətlərini yüksək qiymətləndiririk. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4 və 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən qayğının təzahürüdür.

On beş mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilmişdir. Ölkəyə qaytarılmış bütün vətəndaşlarımız dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında yerləşdirilmişdir. Eyni zamanda, birinci Avropa Oyunları zamanı açılmış Atletlər kəndində də karantinə alınmış şəxslər yerləşdirilir.

Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları müvəqqəti olaraq dayandırılmışdır. Digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları da dayandırılmışdır.

İndiyə kimi ölkə üzrə 60 minə yaxın test keçirilmişdir. Əhalinin hər bir milyon nəfərinə düşən testin sayı 5200-dən artıqdır. Aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerlərdəyik. Azərbaycanda testlərin aparılması üçün 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılmışdır.

Ardı Səh. 3

# Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib



## “Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atmışdır”

Əvvəli-Səh-2

Hazırda dünyada tibbi ləvazimatların və avadanlıqların alınması probleme çevrilmişdir. İstehsal olunan avadanlıqlar və ləvazimatların satılması dövlətlər tərəfindən məhdudlaşdırılmışdır. Ona görə də daxili istehsal ehtiyacı yaranmışdır. Daxili tələbatı ödəmək üçün aprel ayının əvvəlində ölkəmizdə operativ şəkildə tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlamışdır.

Mənim təşəbbüsümlə Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edilmişdir. Hazırda bu fonda köçürülmüş ianələrin həcmi 110 milyon manatdan və ya 65 milyon dollardan artıqdır. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslərin, sahibkarların və təşkilatların fonda könüllü ianəsi həm də böyük rəmzi məna daşıyır. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir.

Sirr deyil ki, koronavirus pandemiyası dünya ölkələrinin iqtisadiyyatına zərbə vurmuşdur. Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və həm də makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq üçün 2,5 milyard manat və ya təqribən 1,5 milyard dollar vəsait ayrılmışdır. Pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabineti Tədbirlər Planı hazırlamış və təsdiq etmişdir. Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, görərik ki, 600 minə yaxın insan bu vəziyyətdən daha çox əziyyət çəkir. Sahibkarlara müraciət olunmuşdur ki, iş yerləri ixtisar edilməsin. Qırx dörd min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaqdır. Bu proqramlar, ümumilikdə, 600 minə yaxın insanı əhatə edir. Ümumilikdə, dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilmişdir. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaqdır. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanmışdır. Banklar tərəfindən sahibkarlara yeni verilən 500 milyon manat və ya təqribən 300 milyon dollar həcmində kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir. Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaqdır. Dövlət zəmanəti olmayan 1 milyard manat, təqribən 600 milyon dollar həcmində mövcud bank kreditləri üzrə faiz dərəcəsinin 10 faiz bəndi subsidiyalaşdırılacaqdır. Bunun üçün dövlət büdcəsindən 50 milyon manat və ya təqribən 30 milyon dollar vəsait ayrılmışdır. Bu tədbirin əsas məqsədi pandemiya səbəbindən faizlərin ödənilməsində çətinliklərlə üzləşmiş sahibkarlara kömək etməkdir. Sosial təcrid tədbirləri nəticəsində əhali tərəfindən elektrik enerjisi sərfi artmışdır. Bunu nəzərə alaraq kommunal ödəmələrə güzəşt edilmişdir. Bu proqramlar dövlətin dəstəyinin yalnız bir hissəsidir və digər dövlət dəstəyi mexanizmləri üzərində hazırda iş aparılır.

Hörmətli dostlar, hesab edirəm ki, bugünkü fövqəladə Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atdığımız addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birimizə dəstək göstərilməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsidir. Mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir.

Ölkələrimizin iqtisadiyyatı, ticarət münasibətlərimiz və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görmüşdür. Qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində ölkələrimiz arasında beynəlxalq yükdaşımaları fasiləsiz olaraq həyata keçirilir. Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk üç ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınmışdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur.

Səhiyyə xidmətləri sahəsində əməkdaşlığımız, o cümlədən tibb mütəxəssislərinin təcrübə mübadiləsi, birgə tibbi komissiyaların yaradılması üçün yaxşı imkanlar vardır. Bundan əlavə, sərnişin nəqliyyat daşımalarının müvəqqəti bağlanmasına görə ölkələrimizin ərazisində qalan bir-birimizin vətəndaşlarına dəstək və yardım göstərməyimiz vacibdir. Bizim gördüyümüz bu tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması və pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların yüngülləşdirilməsi, iqtisadiyyatlarımızın davamlı inkişafının təmin edilməsi məqsədi daşıyır. Ümid edirəm ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək və pandemiyaya qarşı qlobal mübarizəyə öz layiqli töhfəsini verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

## Arif Cəfər oğlu İsmayılzadə



Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Geologiya sahəsində tanınmış alim, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru Arif İsmayılzadə 2020-ci il aprelin 9-da ömrünün 83-cü ilində vəfat etmişdir.

Arif Cəfər oğlu İsmayılzadə 1937-ci il avqustun 14-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1954-1959-cu illərdə Azərbaycan Sənaye İnstitutunun geoloji kəşfiyyat fakültəsində mühəndis-geoloq ixtisası üzrə ali təhsil almış, 1962-1965-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunun aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə 1959-cu ildən Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunda laborant kimi başlayan Arif İsmayılzadə 1965-1978-ci illərdə İnstitutun petrologiya laboratoriyasında kiçik elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. O, 1978-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasının “Geofizika” Elmi Mərkəzinin petromaqnetizm laboratoriyasının, 1982-1998-ci illərdə Akademiyanın Geologiya İnstitutunun dərinlik maqmatik prosesləri laboratoriyasının, 1998-ci ildən Geologiya və Geofizika İnstitutunun petrologiya və metallogeniya seksiyasının rəhbəri vəzifələrində işləmiş, 2007-2013-cü illərdə isə Milli Elmlər Akademiyasının Yer Elmləri Bölməsinin akademik-katibi olmuşdur.

Arif İsmayılzadə 1968-ci ildə geologiya-mineralogiya elmləri üzrə namizədlik və 1991-ci ildə doktorluq dissertasiyaları müdafiə etmiş, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2007-ci ildə həqiqi üzvü seçilmişdir.

Akademik Arif İsmayılzadə respublikada geologiya elminin inkişafına dəyərli töhfələr vermiş alimlərdəndir. Onun aktual geoloji problemləri əhatə edən, metallogeniya və petrologiya elmləri üzrə tədqiqatlarında yerin dərinliklərində baş verən proseslərin modelləşdirilməsi və filiz-maqmatik sistemlərin formalaşma qanunauyğunluğunun öyrənilməsi aparıcı yer tutur. Bu tədqiqatlar Kiçik Qafqazın inkişafının müxtəlif mərhələlərində Yer qabığı və mantiyanın qarşılıqlı təsirinin spesifikasını müəyyənləşdirməyə və metamorfik dəyişmə ardıcıllığını üzə çıxarmağa imkan vermişdir. Arif İsmayılzadə elmi fəaliyyətində regionun geodinamikasının tədqiqinə, filiz və neftəmələgəlmə proseslərinin vəhdəti məsələlərinə də xüsusi diqqət yetirmişdir.

Arif İsmayılzadənin uzunmüddətli araşdırmalarının nəticələri 170-dən artıq elmi məqalədə, məruzə və monoqrafiyalarda dolğun əksini tapmışdır. Səkkizcildlik fundamental “Azərbaycan geologiyası” əsərinin maqmatizm, tektonika və faydalı qazıntılara dair cildləri alimin sanballı tədqiqatları sırasında mühüm əhəmiyyətə malikdir. Arif İsmayılzadə Azərbaycan elmini dünyanın müxtəlif ölkələrində beynəlxalq simpozium, konfrans və konqreslərdəki çıxışları ilə layiqincə təmsil etmişdir. Bakı Dövlət Universitetinin geologiya fakültəsinin faydalı qazıntılar kafedrasında ixtisas fənlərini tədris etmiş alimin yüksəkixtisaslı kadrların hazırlanmasında böyük əməyi vardır.

Akademik Arif İsmayılzadənin Azərbaycan elminin inkişafında xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Alim respublikanın Əməkdar geoloqu və Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan “Şöhrət” ordeni ilə təltif edilmişdir.

Tanınmış tədqiqatçı alim, səmimi insan Arif Cəfər oğlu İsmayılzadənin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fərəh Əliyeva
Ramiz Mehdiyev
Xoşbəxt Yusifzadə
İbrahim Quliyev
Akif Əlizadə
Vasif Babazadə
Fəxrəddin Qədirov




# Çin KİV-ləri Heydər Əliyev Mərkəzinin aksiyasını diqqətdə saxlayıb

*Çinin nüfuzlu kütləvi informasiya vasitələri Heydər Əliyev Mərkəzinin Azərbaycanın koronavirus (COVID-19) pandemiyasının geniş yayıldığı ölkələrlə həmrəyliyinin rəmzi olaraq həyata keçirdiyi aksiyanı diqqətdə saxlayıb.*





Azerbaijan's Heydar Aliyev Center lit up to support China's COVID-19 fight

Source: Xinhua | 2020-04-05 08:07:05 | Editor: mingmei

The Heydar Aliyev Center is lit up with the image of the Chinese national flag to support China's efforts in fighting against the COVID-19 outbreak, in Baku, Azerbaijan, April 3, 2020. (Xinhua)

AZƏRTAC xəbər verir ki, milli xəbər agentliyi olan Sinxua, rəsmi “Jenmin Jibao” qəzeti, Çin Mərkəzi Televiziyası, nüfuzlu “China Daily” qəzeti, “Chinanews.com”, “China.org.cn” və digər xəbər saytları dünya memarlıq abidələrindən olan Heydər Əliyev Mərkəzinin binası üzərində Çin Xalq Respublikasının bayrağının bu ölkənin musiqisinin müşayiəti ilə proyeksiya olunması barədə Çin, ingilis, rus və digər dillərdə xəbərlər hazırlayıblar. Bəzi KİV-lər isə bu barədə məlumatı “Əsas xəbər” bölməsində və ya saytın üz səhifəsində yerləşdiriblər. Bundan başqa, həmin KİV-lər, habelə fərdi istifadəçilər yerli və xarici sosial şəbəkələrdə və video portallarda (Wechat, Weibo, Facebook, Youku, TikTok və s.) bu barədə paylaşımlar ediblər.

Çin KİV-ləri bu aksiyanın Azərbaycanın pandemiyadan əziyyət çəkən Çin xalqına hörmət və ehtiramının ifadəsi, Çin ilə həmrəyliyinin göstəricisi olduğunu yazıb.

Qeyd edək ki, COVID-19 pandemiyasının yayılmasına qarşı Azərbaycanın beynəlxalq ictimaiyyətlə həmrəyliyinin ifadəsi olaraq, virusdan zərər çəkən bir dövlətin bayrağı hər gün həmin ölkənin musiqisinin müşayiəti ilə dünya memarlıq abidələrindən olan Heydər Əliyev Mərkəzinin binası üzərində nümayiş etdirilir. Bununla Heydər Əliyev Mərkəzi COVID-19-un geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir. Mərkəzin binası üzərində proyeksiya hər gün saat 20:00-dan gecə saat 00:00-dək davam edir.

# Pakistan qondarma “seçkilər”i tanımır



***2020-ci il martın 31-də işğal olunmuş Dağlıq Qarabağda keçirilmiş qondarma “prezident və parlament seçkiləri” beynəlxalq hüququn və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin açıq-aşkar pozulması deməkdir. SİA-nın məlumatına görə, bunu Pakistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Aişə Faruki brifinq zamanı deyib. O bildirib ki, bu addım Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması yollarının axtarışı üzrə danışıqlar prosesinə mane olmaq cəhdi kimi qiymətləndirilir.***

Xatırladaq ki, 1988-ci ildə Ermənistan Azərbaycana qarşı ərazi iddialarına başladı. Bir müddət sonra isə Ermənistan tərəfindən Azərbaycan ərazilərinə hərbi təcavüz başlandı. Dağlıq Qarabağ və ətraf 7 rayon - Azərbaycan ərazisinin 20 faizi - Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Bu işğal faktı hələ də davam edir.

1994-cü ilin mayında tərəflər atəşkəs rejiminə nail olublar. O dövrdən bu günə kimi ATƏT-in Minsk qrupunun himayəsində - Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə nəticəsiz sülh danışıqları davam edir. İşğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsi haqqında BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə isə Ermənistan tərəfindən bu günədək icra olunmayıb.

# Koronavirusdan zərərçəkmiş fərdi sahibkarlara maliyyə dəstəyinin göstərilməsi üzrə onlayn müraciət qaydası açıqlanıb



*Koronavirus pandemiyasından zərərçəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi məqsədilə onlayn müraciətin tərtib olunması qaydası açıqlanıb.*

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində sahibkarlıq fəaliyyəti göstərən 300 min fərdi sahibkara dövlət tərəfindən 80 milyon manat həcmində maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulur. Maliyyə yardımı 2019-cu ildə vergilərini, məcburi dövlət sosial sığorta haqlarını və işsizlikdən sığorta haqlarını ödəmiş vergiödəyicilərinə şamil ediləcək. Dövlət büdcəsindən ayrılan vəsaitlər həmin fərdi sahibkarların bank hesablarına köçürüləcək. Bu məqsədlə qeydiyyatda olan bütün vergiödəyicilərinin şəxsi elektron kabinetlərinə (“www.e-taxes.gov.az”) “Pandemiya ilə bağlı maliyyə dəstəyi proqramı” barədə bildirişlər və mobil telefonlarına SMS-lər göndəriləcək.

Vergiödəyiciləri maliyyə dəstəyi əldə etmək üçün internet vergi idarəsindəki şəxsi kabinetində “Pandemiya ilə bağlı maliyyə dəstəyi proqramı” bölməsindən “Fərdi sahibkarlara ödənişlər üzrə müraciət” alt bölməsinə daxil olaraq müvafiq müraciət formasını doldurmalıdır.

# Rusiya XİN: Rəsmi Moskva Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır



Rusiya Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır. Bu fikri Rusiya Xarici İşlər Nazirliyinin sözçüsüMariya Zaxarova Moskvada keçirilmiş mətbuat konfransında söyləyib. M.Zaxarova Azərbaycanın Dağlıq Qarabağ bölgəsində keçirilmiş qondarma “seçkilər” barədə suala cavab verərək bildirib ki, bu “seçkilər”lə əlaqədar ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatı var və bu sənədlə qurumun saytında tanış olmaq mümkündür.

Rusiya XİN-in rəsmi nümayəndəsi, həmçinin bildirib: “Bilirsiniz ki, Rusiya Federasiyası Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır. Dağlıq Qarabağın statusu siyasi danışıqlar yolu ilə müəyyən edilməlidir və ATƏT-in Minsk qrupu bununla, yəni, problemin kompleks həlli ilə məşğuldur. Eyni zamanda, hesab edirik ki, nizamlanma prosesinin gedişi adıçəkilən tədbirdən hər hansı dərəcədə asılı deyil”.

# Azərbaycanın uğurlu gələcəyini təmin edən LİDER

## *Prezident İlham Əliyev: "Azərbaycan sosial dövlətdir və bizim bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır"*



***İctimai-siyasi və sosial-iqtisadi həyatının müstəqillik dövrünü yaşayan Azərbaycan yüksək göstəriciləri və nəticələri ilə dünya dövlətləri sırasında qüdrətini daha da artırır. Bu gün Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyinin daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir.***



Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilib. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə ölkəmizin mövqeyini nəzərə alırlar. Ölkəmiz sosial-iqtisadi inkişaf tempinə görə dünya dövlətləri arasında liderlər sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyev hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində qeyd etmişdi ki, "əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm". Bu, belə də oldu. Cənab Prezidentin "Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir" - deməsi çox böyük əsaslara söykənir. 2003-cü ildən bu günə qədər keçən dövr Azərbaycan sürətli inkişaf dövrünü yaşamış və dünyada analoqu olmayan iqtisadi uğurlara imza atmışdır. Ölkə qarşısında duran bütün vəzifələr icra edilmişdir, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Həqiqətən də, Azərbaycan son 16 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbət qazanmış bir ölkədir.

### UĞURLU DAXİLİ VƏ XARİCİ SİYASƏT SAYƏSİNDƏ DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ MÖHKƏMLƏNİB

Azərbaycanda 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərindən artıq iki il ötür. Ötən iki ildə müxtəlif sahələrdə islahatlar həyata keçirilib. Bu gün Azərbaycan yeni iqtisadi və sosial çağırışların, nüfuzlu beynəlxalq qurumların tədbirlərinin keçirilməsi üçün əsas məkan kimi tanınır, dünyaya özünü demokratik ənənələrə sadiq, hüquqi və sosial dövlət kimi təqdim edir. Ölkəmizin bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması və s. Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə daha da möhkəmləndirir. Azərbaycan Prezidentinin əməli fəaliyyətinin, iradəsinin nəticəsidir ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, qlobal əhəmiyyətli iqtisadi zonalar yaradılıb. Cənub Qaz Dəhlizinin, TANAP layihəsinin istifadəyə verilməsi uğurlu hadisələr sırasındadır. Cənab Prezidentin vurğuladığı kimi, bunlar dünyada da çox böyük əks-səda yaradan layihələrdir. Enerji siyasətinə gəldikdə isə, Cənab Prezidentin qeyd etdiyi kimi, bunun təsiri təkcə ölkəmizdə hiss olunmur, Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır: "Biz dənizləri birləşdiririk. Xəzər dənizini neft kəmərləri ilə Qara dənizlə, Aralıq dənizi ilə, Azərbaycanı isə, qaz xətti ilə Avropa ilə birləşdiririk"

### "ASAN XİDMƏT" İCTİMAİ MÜNASİBƏTLƏRİN VƏ XİDMƏTLƏRİN MÜASİR MODELİDİR"

Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb və təhsildə özəl sektor formalaşıb. "ASAN xidmət" şəbəkəsi, ünvanlı sosial yardım, aztəminatlı ailələrin əlverişli şərtlərlə mənzillə təmin olunması və digər layihələr dövlətin sosialyönümlü siyasətinin göstəricisidir. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər mümkün korrupsiya hallarını aradan qaldırır və vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bu onu göstərir ki. Azərbaycan uğurlu inkişaf modelinə malik dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən, əqli məhsullarını ixrac edir: "Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir". Bu gün Azərbaycan dünyaya inteqasiya edir, öz məhsullarını dünya bazarına çıxarır, moderin, yenilikçi ölkə olaraq dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığa üstünlük verir. Cənab İlham Əliyev "ASAN xidməti" xalqımızın intellektual səviyyəsinin, Azərbaycanın inamlı inkişafının göstəricisi kimi dəyərləndirir. "Ölkəmiz müasirləşir, inkişaf edir.

*Ardı Səh. 6*

# Azərbaycanın uğurlu gələcəyini təmin edən LİDER

## *Prezident İlham Əliyev: "Azərbaycan sosial dövlətdir və bizim bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır"*



Əvvəli-Səh-4

"ASAN xidmət"in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar, - deyən Prezident İlham Əliyev korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə də "ASAN xidmət"in çox mühüm rol oynadığını vurğulayıb. Qeyd edək ki, indiyə qədər "ASAN xidmət" mərkəzlərinə 33 milyondan çox müraciət edilib. Vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98-100% arasında dəyişir. Bu mərkəzdə yeni texnologiyalar, innovasiyalar tətbiq olunur. Bu, innovasiya, yeni fikrin, yeni yanaşmanın yaranması Azərbaycanın inkişafının göstəricisidir.

Son 16 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafını təmin edib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Bildiyimiz kimi, 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi yadda qaldı. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirildi. Ölkəmizdə 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev növbəti dəfə xalqın böyük əksəriyyətinin səsini qazanaraq parlaq qələbə qazandıqdan sonra imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrası olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. 19 fevral 2019-cu il tarixli Fərman isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu. Dövlət başçısının imzaladığı 25 fevral 2019-cu il tarixli Sərəncam isə ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərdi. Sərəncamla 600 minədək şəxsə, o cümlədən, 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlərin, Prezidentin aylıq təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması təmin edildi, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu. "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırıldı.



### "AZƏRBAYCAN MODELİ, AZƏRBAYCAN NÜMUNƏSİ BU GÜN DÜNYANIN MÜXTƏLİF ÖLKƏLƏRİNDƏ ÖYRƏNİLİR"

Müasir dünyanın idarə mexanizmi, baxışı bəşər sivilizasiyası ilə birgə dəyişir, inkişaf edir. Hadisələrə yanaşılma prizması illər, əsrlər bundan əvvəl olduğu kimi deyil, dünyanın qəbul etdiyi tərzdədir. Belə bir zamanda Azərbaycana dünyanın müxtəlif dövətlərinin marağının artması ölkəmizin siyasi gücündən, iqtisadi inkişafından, sülhsevər dövlət olduğundan xəbər verir. İctimai-siyasi baxışları, mədəni-sosial layihələri, mötəbər tədbirlərin iştirakçısı olaraq, Şərqlə Qərbin ortaq dəyərlər modeli sayılan Azərbaycan tolerant, mehriban birgəyaşama mədəniyyəti baxımından da artıq dünya üçün bir örnəkdir. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətidir.



Müstəqillik tariximizdə ölkəmizin etibarlı tərəfdaş olması, təhlükəsizliyə, sabitliyə, tolerantlığa və s. verdiyi töhfələrin məntiqi nəticəsidir ki, Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilərək BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq qurumların üzvü oldu. Xüsusi ilə də dünyanın qarışıq dövründə bir məkanda yəhudilik, xristianlıq və islamın, eləcə də müxtəlif inancların qarşılıqlı hörmət şəraitində yaşaması bu marağın daha da artmasına dəlalət edir. Tolerantlıq və multikulturalizm məkanı olan Azərbaycan həm ölkədə, həm də bütün dünyada tolerantlıq və mədəniyyətlərarası dialoq yaratmağı davam etdirməyi qarşıya məqsəd qoyub. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Azərbaycan Respublikasının din sahəsində apardığı siyasət cəmiyyətdə dinin müxtəlif formalarda mövcudluğunu nəzərə alaraq, fikir, söz və vicdan azadlığı üzərində qurulub. Dövlətin din sahəsindəki siyasəti beynəlxalq hüququn prinsiplərinə və normalarına, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə, ölkə Konstitusiyasına və digər normativ hüquqi aktlara əsaslanır. Azərbaycan "tolerant ölkədən tolerant dünyaya doğru" şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib. Həm buna tarixi-mənəvi haqqı olması, həm beynəlxalq nüfuzu, həm də gələcəyə yönəlmiş planları nöqteyi-nəzərindən Azərbaycanın qarşısına belə bir məqsəd qoyması təbii və zəruri prosesdir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik".

Bütün əldə edilən bu və ya digər uğurlar müstəqil Azərbaycanın tarixi nailiyyəti və Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının məntiqi nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan Hökuməti ötən il ərzində çox səmərəli fəaliyyət göstərmişdir

***-Ağalar müəllim, bu gün Milli Məclisin iclasında Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında hesabat dinlənilib. Bu hesabatı necə qiymətləndirirsiniz?***

-Çağdaş tarixinin ən qüdrətli dövrünü yaşayan ölkəmiz üçün ötən 2019-cu il müasir həyatımızın bütün sahələrində qazanılan yüksək nailiyyətlərlə və uğurla gerçəkləşdirilən irimiqyaslı köklü islahatlarla əlamətdar olmuşdur. Zəngin strukturu, analitik informasiyaları və məzmunlu təhlilləri ilə seçilən Nazirlər Kabinetinin hesabatı zənnimcə yüksək peşəkarlıqla mükəmməl hazırlanmışdır.

Hesab edirəm ki, sürətlə dəyişən yeni çağırışlar şəraitində son 16 il müddətində cənab Prezidentin ardıcıl həyata keçirdiyi islahatların nəticəsində ölkəmizin hərtərəfli inkişafının bütün parametrləri və aspektləri hesabatda dolğun şəkildə öz əksini tapmışdır. Heç şübhəsiz ki, 2019-cu ildə ağır geosiyasi və geoiqtisadi mənzərə fonunda Azərbaycanın davamlı inkişafının, makroiqtisadi və maliyyə dayanıqlığının, xalqımızın sabitlik və təhlükəsizlik şəraitində yaşayışının təmin edilməsi hökümətin səmərəli fəaliyyətinin başlıca prioritetləri kimi səciyyələndirilməlidir.

Eyni zamanda milli iqtisadiyyatımızın rəqabətqabiliyyətli və ixracyönümlü istiqamətlərdə stimullaşdırılması və şaxələndirilməsi, sənayeləşmənin gücləndirilməsi və kənd təsərrüfatının inkişaf etdirilməsi, özəl sektorun təşviqi və investisiya mühütinin yaxşılaşdırılması olduqca müsbət məqamlar kimi dəyərləndirilməlidir.

***-İnkişaf göstəriciləri statistik rəqəmlərdə öz əksini necə tapır?***

-Hörmətli Baş Nazirin ətraflı məruzəsindən göründüyü kimi, ölkə



*Milli Məclisin deputatı Ağalar Vəliyevin yap.org.az-a müsahibəsi*

rəhbərinin göstərişlərini əsas tutaraq hökumət hesabat ilində iqtisadi inkişafla sosial tərəqqi arasında əlaqənin daha da möhkəmləndirilməsini və əhalinin rifahının yaxşılaşdırılması imkanlarından səmərəli istifadə edilməsini bilavasitə diqqət mərkəzində saxlamışdır.

Həyata keçirilən davamlı siyasi, iqtisadi, sosial, kadr və struktur islahatları sayəsində 2019-cu ildə çoxşaxəli inkişafımız daha da sürətlənmiş, ümumi daxili məhsul real ifadədə 2,2 faiz artaraq 81,7 milyard manat, onun adam başına düşən payı 1,4 faiz artaraq 8 247 manat və ya 4 851 dollar təşkil etmiş, qeyrineft sektoru 3,5 faiz, sənaye 1,5 faiz, qeyri-neft sənayesi 14,3 faiz, kənd təsərrüfatı isə 7,2 faiz artmışdır.

İl ərzində valyuta ehtiyatlarımız 14,2 faiz və ya 6,4 milyard dollar artaraq rekord həddə - 51 milyard dollara çatmışdır. Hazırda valyuta ehtiyatlarımız xarici dövlət borcunu 5 dəfədən çox üstələyərək ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir ki, bu da dünya miqyasında 9-cu göstəricidir.

Cənab Prezidentin təşəbbüsü ilə keçən il 4,2 milyon insanı əhatə edən və dəyəri 2,3 milyard manat olan iki böyük sosial paketin reallaşdırılması sayəsində müavinətlərin, təqaüdlərin və əmək haqlarının çox əhəmiyyətli dərəcədə artırılması bir daha dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını sübut edir. Qazanılmış nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmış, Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkəsi siyahısına salmış və hazırda ölkəmiz inkişaf templərinə görə dünya miqyasında 35-ci yerdə qərarlaşmışdır.

Nazirlər Kabinetinin fəaliyyəti kontekstində ölkənin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətli sfera kimi inşaat kompleksində görülən işlərə ayrıca toxunmaq istərdim. Belə ki, 2019-cu ildə tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın məbləği ümumi sərmayənin 65,4 faizini təşkil edərək 11 milyard 245 milyon manat olmuş, il ərzində nəzərdə tutulan bütün infrastruktur layihələri icra olunmuş, bir sıra sosial və istehsal təyinatlı obyektlər istifadəyə verilmiş, 60 tibb müəssisəsi, 84 məktəb tikilmiş və ya əsaslı təmir edilmişdir.

Sevindirici haldır ki, ümumi inşaat işlərinin 82,9 faizi qeyri-dövlət tikinti müəssisələri tərəfindən icra olunmuşdur. Hesabat ilində həmçinin ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına hədəflənən məqsədyönlü və sistemli tədbirlər həyata keçirilmişdir.

İqtisadiyyatımızın digər sahələri ilə yanaşı, inşaat sektorunda əhəmiyyətli inkişafın müşahidə olunması, şəhərsalma və tikinti sahələrində irihəcmli investisiyaların böyük hissəsinin çoxmənzilli yaşayış binalarının tikintisinə yönəldilməsi fikrimcə çox təqdirəlayiq haldır.

***-Genişmiqyaslı inkişaf prosesi millət vəkili kimi təmsil etdiyiniz bölgədə özünü hansı səviyyədə göstərir?***

-Azərbaycanın son illərdəki sürətli inkişafını sərhədyanı bölgə kimi hər zaman cənab Prezidentin diqqəti və qayğısı ilə əhatə olunan və millət vəkili kimi təmsilçisi olduğum 97 saylı seçki dairəsinə daxil olan Goranboy rayonunun timsalında da aydın görmək olar.

Təkcə bir faktı vurğulayım ki, sonuncu dəfə cari ilin martın 2-də olmaqla möhtərəm Prezidentimiz Goranboy rayonuna 7 dəfə səfər etmiş, müxtəlif təyinatlı obyektlərin açılışında iştirak etmiş və bu bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə yönələn 22 sərəncam imzalamışdır.

Seçicilərimin ölkə rəhbərinə ünvanlanan çoxsaylı minnətdarlıq hisslərini ifadə edərək böyük məmnuniyyətlə qeyd etmək istərdim ki, hökumətin 2018-ci il üzrə hesabatının Milli Məclisdə müzakirəsi zamanı 13 təhsil və 6 səhiyyə müəssisəsinin əsaslı təmiri və tikintisi, eləcə də rayonun elektrik şəbəkəsinin SİP kabelləşdirilməsi və telefon qovşağı xətlərinin yenilənməsilə bağlı qaldırdığım məsələlərin bir çoxu icra olunması üçün müvafiq dövlət proqramına salınmışdır ki, buna görə Nazirlər Kabinetinə dərin təşəkkürümü bildirirəm.

Bununla belə, rayonun həlli vacib olan bəzi problemləri həllə də qalmaqdadır ki, hökumət üzvlərinin buradakı iştirakından istifadə edərək onları səsləndirmək istərdim. Belə ki, Goranboy rayonunun 8 kəndinin, o cümlədən Yuxarı Ballıqaya, Börü, Buzluq, Erkəc, Mənəşli, Todan, Gürzallar, Qazançı kəndlərinin qazlaşdırılmasına, bir çox yaşayış məntəqələrinə isə içməli su xəttlərinin çəkilməsinə ciddi ehtiyac vardır. Ümüdvaram ki, sadaladığım bu problemlərin həlli istiqamətlərində Nazirlər Kabinetinin müvafiq qurumları tərəfindən əməli tədbirlər görüləcəkdir ki, bu da son nəticədə rayonun sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə böyük töhfə olacaqdır.

***-Ağalar müəllim, hazırda Azərbaycan Hökuməti koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində sistemli tədbirlər həyata keçirir. Bu barədə nə deyə bilərsiniz?***

-Azərbaycanın son illərdəki inkişaf modelinin əsas qayəsi ondan ibarətdir ki, uğurla həyata keçirilən dövlət siyasəti ölkəmizin güclü dövlətə çevrilməsinə və xalqımızın rifahının yüksəldilməsinə hesablanmışdır.

Konseptual baxımdan bütün uğurlarımızın əsasında cənab Prezidentin sistemli və balanslaşdırılmış daxili və xarici siyasəti, onun xalqımız tərəfindən dəstəklənməsi, tükənməz vətəndaş etimadı və sarsılmaz iqtidar-xalq birliyi dayanır.

Hər zaman olduğu kimi, Azərbaycan xalqı bu gün qətiyyətlə inanır ki, hazırda bütün dünyanı bürüyən koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətlərində hörmətli dövlət başçımızın bilavasitə dəstəyilə həyata keçirilən qabaqlayıcı tədbirlər və Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi xüsusi karantin rejimi öz müsbət nəticələrini verəcək, xalqımızın sağlamlığı bütövlükdə mühafizə olunacaq və bu qorxunc xəstəliyin cəmiyyətimiz üçün törədə biləcəyi bütün fəsadlar tezliklə aradan qaldırılacaqdır.

Əminəm ki, Nazirlər Kabineti qarşıda duran bu və digər vəzifələrin, eləcə də cənab Prezidentin gələcək inkişafımızın yeni hədəflərilə bağlı imzaladığı fərman və sərəncamların, göstəriş və tapşırıqların icrasını layiqincə təmin edəcəkdir.

# Jalə Əhmədova: "Belə çətin günlərdə imzalanan əfv Sərəncamı bir çox ailənin böyük sevincinə səbəb oldu"

***Prezident İlham Əliyevin Sərəncamı ilə yaşı 65-dən yuxarı olan 176 məhbusun koronavirusla əlaqədar əfv edilməsi təkcə humanizm deyil, həmçinin yaşlılara hörmət və diqqətin parlaq nümunəsi, hər bir vətəndaşın sağlamlığına göstərilən qayğının təcəssümüdür.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Jalə Əhmədova bildirib. Deputat qeyd edib ki, məhkumların əfv edilməsi ümummilli lider Heydər Əliyevin yaratdığı hüquqi-humanist ənənələrin davamıdır və xalqımız tərəfindən çox yüksək qiymətləndirilir. Çünki koronavirusun yaratdığı çətin günlərdə imzalanan bu əfv Sərəncamı bir çox ailənin böyük sevincinə səbəb oldu. Dövlətimizin başçısı vətəndaşlara daim böyük diqqət və qayğı göstərib, çətin günlərdə hər zaman onların yanında olub. Azərbaycanda əfv sərəncamlarının imzalanması ənənəvi hal alıb.

"Əfv Sərəncamı imzalanarkən istinad edilən dəyərlər xalqımızın əsrlərboyu formalaşdırdığı, bu gün də cəmiyyətimizdə milli birliyin və həmrəyliyin əsasında duran yüksək mənəvi dəyərlərdir ki, bu da özlüyündə xüsusi qiymətləndirilməli hadisədir. Hazırda bütün dünyada olduğu kimi, ölkəmizdə də koronavirus yayılıb və bunun nəticəsində



müəyyən yaş qrupuna daxil olan vətəndaşlarımızın sağlamlığı ciddi təhdid altındadır. Tibb işçilərimiz bu qrupu xüsusi risk qrupu kimi səciyyələndirir, onların xüsusi qayğıya və qorunmaya ehtiyacı olduqlarını bildirir", -deyə Milli Məclisin deputatı vurğulayıb.

J.Əhmədova əlavə edib ki, koronavirusun bütün dünyada ağır fəsadlara yol açmasına baxmayaraq, Azərbaycanda vəziyyət tamamilə nəzarət altındadır. Prezident İlham Əliyevin vaxtında və müdrikcəsinə qəbul etdiyi qərarlar ölkəmizdə koronavirusun geniş vüsət almamasını şərtləndirən əsas amillərdəndir. Mövcud imkanların vəhdəti, nümayiş etdirdiyimiz milli həmrəylik, habelə həkimlərimizin peşəkarlığı və gərgin əməyi Azərbaycanın bu vəziyyətdən minimal itkilərlə çıxmasına şərait yaradır. Bu proses bir daha onu sübut etdi ki, Azərbaycan xalqının bütün uğurlarının təməlində xalq-iqtidar birliyi dayanır.

Azərbaycanda insanların infeksiyaya yoluxmaması və sağlamlığının təmin edilməsi üçün dövlət tərəfindən bütün zəruri addımların atıldığını bildirən deputat qısa müddət ərzində ölkəmizdə tibbi maska istehsal edən müəssisənin fəaliyyətə başlamasını təqdirəlayiq hal hesab olunduğunu bildirib. "Nəzərə alaq ki, bu, həm koronavirusla mübarizəyə mühüm töhfədir, həm də Azərbaycanın bu sahədə asılılığını tam aradan qaldırır və gələcəkdə ölkəmizin ixrac potensialını artıra bilər. Bu, həm də onu göstərdi ki, Azərbaycandakı infrastruktur qısa müddət ərzində istehsalatın təşkilinə imkan verəcək səviyyədədir", -deyə Milli Məclisin deputatı əlavə edib.

# İnsanların sağlamlığı və təhlükəsizliyi dövlətitmizin daim diqqətindədir

## Koronavirusa qarşı görülən tədbirlər ölkə vətəndaşları tərəfindən məmnunluqla qarşılanır

***Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələbinə uyğun siyasi islahatlar, icra edilən iqtisadi proqram və sərəncamlar ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verib. Azərbaycan öz daxili siyasətində insan amilinə prioritet istiqamət verməklə həm iqtisadi, həm sosial, həm də siyasi proseslərdə önəmli mövqe qazanıb. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycanda dövlət siyasətinin prioritetini insanların yüksək rifah və firavan yaşaması təşkil edir. Bu, demək olar ki, müasir Azərbaycan dövlətinin siyasətinin əsas xəttini təşkil edir. Ölkə başçısı hər bir addımında, verdiyi bütün qərarlarda ilk olaraq məhz insanları düşünür. "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır", - deyən Prezident İlham Əliyev əməli fəaliyyətində bunu göstərir. Əlbəttə, Azərbaycan dövləti, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır, onun firavan yaşayışını, təhlükəsiz həyatını təmin etmək iqtidarındadır. Dövlətimizin gücünü, qüdrətini hər bir Azərbaycan vətəndaşı duyur, dərk edir və bu, onlar üçün qürurvericidir.***



Hər bir Azərbaycan vətəndaşı ölkənin sosial-iqtisadi inkişafının dinamik xarakter aldığını, hər yerdə genişmiqyaslı quruculuq-abadlıq işlərinin aparıldığının şahidi olurlar. Çoxsaylı sosial obyektlər istifadəyə verilir, yol infrastrukturu yenilənir, zavodlar, fabriklər tikilir, iş yerləri açılır, maaş və müavinətlər dəfələrlə artıb, ən əsası, əhalinin yaşayış səviyyəsi durmadan yaxşılaşır. Bu, Cənab Prezidentin uğurlu daxili siyasətinin məntiqidir.

Əlbəttə ki, dövlətin öz vətəndaşının yanında olması bütün çətinliklərin aradan qaldırılmasında önəmlidir. Bu gün dünyamızın narahat olduğu bir zamanda Azərbaycan Prezidenti öz vətəndaşının yanındadır. minnətdarlıq məktublarında ifadə edirlər. Prezidentin saytına istinadla dövlətimizin başçısına ünvanlanan məktublarda Azərbaycan xalqına göstərdiyi diqqət və qayğıya görə Ona təşəkkürlər ifadə olunur. Dövlət başçısının hər zaman öz xalqı ilə birlikdə olması insanları ruhlandırır. Məktublarda bəşəriyyəti bürüyən bu bəladan birlikdə uğurla çıxacağımıza əminlik ifadə olunur. "Son vaxtlar dünyada geniş vüsət almış yeni koronavirus pandemiyasının Azərbaycanda qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin gördüyü qabaqlayıcı tədbirlərin Xocavənd ictimaiyyəti tərəfindən də son dərəcə müsbət qarşılanır. Cənab Prezident, insanların bu öldürücü virusla üz-üzə qaldı-



Azərbaycanda insanların infeksiyaya yoluxmaması və sağlamlığının təmin edilməsi üçün dövlət tərəfindən bütün zəruri addımlar atılıb. Prezident İlham Əliyevin Sərəncamı ilə yaşı 65-dən yuxarı olan 176 məhbusun koronavirusla əlaqədar əfv edilməsi təkcə humanizm deyil, həmçinin yaşlılara hörmət və diqqətin parlaq nümunəsi, hər bir vətəndaşın sağlamlığına göstərilən qayğının təcəssümü oldu. Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışında xalqa müraciətində görülən işlərdə əsas məqsədin insanların sağlamlığının təmin edilməsi olduğunu vurğuladı. Bütün dünyanı ənginə almış koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin sağlamlığının qorunması üçün gördüyü işlər Azərbaycan vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanır. Vətəndaşlarımız bəşəriyyəti bürüyən bu bəladan Azərbaycan xalqının xilas olması üçün dövlətimizin başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona yazdıqları ğı bir vaxtda Siz öz vətəndaşlarınızın yanında olduğunuzu bir daha göstərdiniz". Bu sözləri Xocavənd rayonunun Qaradağlı kəndinin sakini Əbülfət Əliyev yazır. O. bildirir ki, dövlət başçısının təşəbbüsü ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı: "Həmçinin Siz xəstəliyin geniş yayılmaması üçün xalqa müraciət edərək, bu çətin günlərdə hamını bir olmağa, karantin qaydalarına əməl etməyə çağırdınız. Sizin hər kəsə göstərdiyiniz diqqət və qayğı biz vətəndaşları ürəkləndirir və Sizin hər bir vətəndaşın Prezidenti olduğunuzu bir daha sübut edir.

Cənab Prezident, biz azərbaycanlılar birlikdə çox sınaqlardan çıxmışıq. İnanırıq ki, bu çətinliyi də birlikdə dəf edəcək, tezliklə yenidən firavan həyata qovuşacağıq. Bu çətin günlərdə xalqa dəstək olduğunuza görə xocavəndlilər adından Sizə minnətdarlığımızı bildiririk".

Müstəqil Azərbaycan Respublikasının gündən-günə çiçəklənməsi, insanların rifah halının yüksəldilməsi istiqamətində dövlətimizin başçısının atdığı addımların təqdirəlayiq olduğunu vurğulayan Gəncə şəhər sakini İlkin Cavadov isə belə yazır: "Cənab Prezident, dünyada kütləvi hal alan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər, əhalinin sağlamlığının qorunması üçün gördüyünüz işlər biz gənclilər tərəfindən də yüksək qiymətləndirilir. Bu çətin günlərdə dövlətimiz, xalqımız üçün göstərdiyiniz fədakarlıq, yorulmaz səyləriniz bir gənc olaraq məni çox qürurlandırır və Azərbaycan boyda böyük bir ailənin qayğısını çəkdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm".

Son günlər dünyada geniş vüsət almış yeni koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması istiqamətində dövlətimizin gördüyü qabaqlayıcı tədbirlər Ağcabədi rayonunun ictimaiyyəti tərəfindən də son dərəcə müsbət qarşılanır. Rayon ağsaqqalları, ziyalıları və müvafiq yerli icra strukturları bu istiqamətdə həyata keçirilən təxirəsalınmaz tədbirləri, xüsusilə də insanların sağlamlığının qorunmasının əsas məqsəd kimi qarşıya qoyulmasını sakinlərə çatdırırlar. Ağcabədi rayon sakini Əlizadə Nəcəfov Azərbaycan Prezidentinə minnətdarlığını belə bildirir: "Zaman bir daha göstərdi ki, Prezidentimiz həmişə olduğu kimi, bu çətin günlərdə də xalqımızın yanındadır. Cənab Prezident, Ağcabədi rayonunun əhalisi də Sizin təşəbbüsünüzlə yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait köçürür, "Evdə qal!" və digər çağırışlarınıza ciddi əməl edirlər.

Möhtərəm Cənab Prezident, bu ağır günlərdə biz ağcabədililər Sizin çağırışlarınıza qoşulur, əmin olduğumuzu bildiririk ki, inşallah, xalqımız Zati-alinizin müdrik rəhbərliyi ilə bu sınaqdan da zəfərlə çıxacaq. İnanırıq ki, tezliklə ölkəmizdə həyat öz əvvəlki axarı ilə davam edəcəkdir".

Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir. Qazax rayon sakini Akif Əmirov yazır ki, dövlətimizin başçısı Azərbaycanın gündəngünə inkişaf etməsi, dünya dövlətləri arasında siyasi nüfuzunun artması istiqamətində çox böyük işlər görür və bu işlər xalqımız tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. "Hörmətli Cənab Prezident, xüsusilə də ölkə vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyiniz layihələr, atdığınız uğurlu addımlar təqdirəlayiqdir. Sizin daim diqqət mərkəzində saxladığınız sahələrdən biri də səhiyyədir ki, biz qazaxlılar bu sahənin inkişafı istiqamətində gördüyünüz işlərin real şahidi olduq. Martın 3-də Sizin iştirakınızla Qazax Rayon Mərkəzi Xəstəxanası üçün 145 çarpayılıq 10 korpusdan ibarət yeni xəstəxana binasının istifadəyə verilməsi bölgələrimizdə səhiyyəyə olan qayğınızın bariz nümunəsidir. Bu gün düşmənlə 168 kilometr sərhədi olan Qazaxda belə yüksək səviyyəli xəstəxananın inşa olunması dövlətimiz tərəfindən səhiyyə işçilərinə göstərilən qayğı ilə yanaşı, həm də biz sakinlərə olan diqqət deməkdir. Bakıdan 500 kilometr məsafədə yerləşən Qazaxda müasir standartlara cavab verən xəstəxananın olması bir daha göstərir ki, dövlətimiz nəinki paytaxtda, eləcə də bölgələrimizdə vətəndaşlarımızın sağlamlığının qorunması istiqamətində mühüm addımlar atır.

Əziz Prezidentimiz, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə bir gənc kimi Sizə təşəkkür edir, müstəqil Azərbaycanımızın daha da çiçəklənməsi uğrunda gələcək işlərinizdə nailiyyətlər arzulayıram", - deyə yazır.

Cəlilabad rayonunun Qarakazımlı kənd sakini Fariz Ağayev də minətdarlığını ifadə etməyi özünə bir vətəndaşlıq borcu hesab edib: " Möhtərəm Cənab Prezident, Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısısınız. Xalqımızın rifahı, daha yaxşı yaşaması üçün gördüyünüz bütün işləri alqışlayır, yorulmaz fəaliyyətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Sizin Azərbaycanın inkişafı üçün gördüyünüz işlərin miqyası nə qədər böyük olsa da, əhəmiyyəti illər sonra daha da artacaq. Buna görə xalq Sizi sevir, dəstəkləyir. Əminik ki, Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik. Allah Sizi qorusun".

Əlbəttə ki, dövlətimizin başçısının gördüyü qabaqlayıcı tədbirlər nəticəsində pandemiyanın ölkəmizə təsirinin minimum həddədir. Dövlət başçısının imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar Azərbaycan vətəndaşının təhlükəsizliyinə və sağlamlığının qorunmasına hesablanmış addımlardır.

Sumqayıt sakini Azər Rəşidovun sözləri ilə desək, tarix sübut edir ki, güclü və müdrik lider hər bir xalq, hər bir dövlət üçün çox mühüm amildir: "Biz bunu müstəqil Azərbaycanımızın timsalında da görmüşük və bu gün də görürük. Ulu Öndər Heydər Əliyev ölkəmizi, xalqımızı fəlakətdən necə xilas etmişdisə, Siz də bu gün Azərbaycanı böyük bəlalardan qoruyursunuz. Son vaxtlar yaşanan hadisələr bunu bir daha sübut edir. Vaxtında atdığınız uğurlu addımlar, verdiyiniz müdrik qərarlar sayəsində ölkəmiz koronavirus pandemiyası ilə qətiyyətlə mübarizə aparır və əminik ki, bu mübarizədən qalib ayrılacaqdır".

Cənab Prezidentin insanların sağlamlığının qorunması məqsədilə həyata keçirdiyi qabaqlayıcı tədbirlər bir daha göstərir ki, ölkəmizdə insan amilinə böyük önəm verilir və hər bir vətəndağın sağlamlığı, təhlükəsizliyi daim diqqətdə saxlanılır.

***Zümrüd BAYRAMOVA***

# Koronavirusdan sonra beynəlxalq əlaqələr necə dəyişəcək?

*Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Kanadanın nüfuzlu "Geopolitical Monitor" nəşri üçün COVİD-19 pandemiyasının bitməsindən sonra dünya düzəninin necə dəyişəcəyi və normal həyata qayıdışa dair məqalə yazıb. SİA-nın məlumatına görə, məqalədə bildirilib ki, COVID-19 pandemiyası dünyanda böhran yaratdığı bir vaxtda çox sayda ekspertlər ölkələrin və digər aktorların davranışlarında dəyişikliklərin olacağını proqnoz verirlər.*

Bəziləri ölkələr arasında sərhədlərin bağlanması ilə qloballaşma təhlükəsinə dair xəbərdarlıq edir, digərlər ksenofobiya, milliyyətçilik və rasizmin yeni dalğasının baş qaldıracağını ehtimal edirlər. Həmçinin qlobal böhran fonunda böyük güclər arasında rəqabətin artacağı proqnozlaşdırılır. Lakin müəllifin fikrincə, dünyanın beynəlxalq əlaqələr sistemində hər hansı köklü dəyişiklər baş verməyəcək.

Müəllif məqalədə COVİD-19 infeksiyası ilə 1918-1919-cu illərdə yayılmış İspan qripi pandemiyasının müqayisəli təhlilini aparır: "Bu pandemiyadan sonra bir sıra ölkələrin milli səhiyyə sisteminin yenidən qurulmasına baxmayaraq beynəlxalq münasibətlər sistemində əsaslı dəyişiklik müşahidə olunmadı. Dünya BMT-nin sələfi olan Millətlər Liqasının yaranmasına və dağılmasına şahid oldu. 1939-1945-ci illərdə daha bir dünya müharibəsi baş verdi. I Dünya Müharibəsi İspan qripinə nisbətən beynəlxalq münasibətlərdə daha çox dəyişiklik yaratdı".

Müəllif hesab edir ki, koronavirusdan sonrakı dövrdə bəzi ölkələrdə baş qaldıracaq iqtisadi böhran yeni regional münaqişələrə səbəb ola bilər. Lakin bəşəriyyət bu virus və ya digər yoluxma nəticəsində ərzaq çatışmazlığı ilə qarşılaşmadığı müddətdə dünya ciddi şəkildə dəyişməyəcək.



Fərid Şəfiyev qeyd edib ki, ölkələrin bu pandemiya ilə necə mübarizəsinə dair bir sıra müzakirələr aparılır. Bəzi ekspertlər dünyanın gələcəkdə də bu kimi viruslarla qarşılaşa biləcəyini əsas tutaraq COVİD -19 pandemiyasından sonra hansı nəticələrin çıxarılmalı olduğuna diqqət çəkir.

"Görünür, bu böhran xüsusilə virusun ilkin dövrlərində informasiya çatışmazlığı səbəbindən daha da şiddətlənib. Böyük hökumətlər resursların səfərbər olunması və pandemiyanın və iqtisadi böhranın nəticələrinin yüngülləşdirilməsi baxımından daha çox təminatlıdır. Eyni zamanda yüksək səviyyədə səhiyyə sistemi əhalinin daha yaxşı tibbi imkanlardan yararlanması üçün vacibdir",- deyə müəllif qeyd edir.

F.Şəfiyev hesab edir ki, bu pandemiyadan sonra cəmiyyətlərin "yeni normalar"a keçməsi ilə "normal həyata qayıdış" prosesi başlayacaq. Əksər ölkələrdə siyasi düzən və beynəlxalq əlaqələrin hazırki forması olduğu kimi qalacaq. Eyni zamanda bəzi ölkələr öz səhiyyə sistemlərini və fövqəladə hadisələrə reaksiya imkanlarını daha da təkmilləşdirəcəklər. Təhsil və biznes mühitində onlayn platformalardan istifadə daha da artırılacaq.

Müəllifin fikrincə, BMT, o cümlədən Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı qlobal böhranlar dövründə daha vacib qurumlara çevrilir. Beynəlxalq səhiyyə orqanları, xüsusilə Ümumdünya Səhiyyə Təşkilatının işi, o cümlədən milli səhiyyə sistemləri daha da gücləndirilməlidir.

Məqalədə qeyd olunub ki, COVİD-19 pandemiyası bioloji müharibənin baş verəcəyi ilə bağlı müzakirələrə yol açıb. "Lakin bu ideyalar yeni deyil. Bioloji silahlar I Dünya Müharibəsindən sona qadağan edilib. Bu qadağa 1972 və 1993-cü illərdə bu silahların istehsalı və tədarükünün kriminallaşdırılmasına dair qanunlarla daha da gücləndirilib. COVİD-19-un yayılması onu göstərdi ki, bioloji silah heç bir ölkəyə güzəştə getməz və hətta silahı buraxan ölkəni də yoluxdurar", - deyə məqalənin müəllifi vurğulayıb.

Fərid Şəfiyev bildirib ki, bütün hallarda dünya gözlənilən iqtisadi böhranın simasında da COVİD-19-un təsirlərini hiss edəcək, lakin bəşəriyyət bu problemlə əvvəllər də qarşılaşıb. Dünya liderləri milliyyətçiliyin növbəti dünya müharibəsinə yol aça biləcəyi səviyyəyə çatmasının qarşısını alacağı təqdirdə bu problem idarə olunan bilər.

# "İslahatların effektiv olması Dünya Bankının hesabatında öz yerini tapıb"



*"Azərbaycan "Doing Business" hesabatında ən islahatçı 20 ölkə arasında yer alıb". Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib. Politoloqun sözlərinə görə, Dünya Bankının nüfuzlu "Doing Business" hesabatı hər il dünyanın hər bir ölkəsindəki iqtisadiyyat, biznes sahəsində olan vəziyyəti araşdırır: "Azərbaycanda son illərdə bu sahələrdə baş verən islahatlar göz qabağındadır.*

Bu islahatların effektiv olması Dünya Bankının nüfuzlu hesabatında da öz yerini tapıb. Keçən il də Azərbaycan bu hesabatda kifayət qədər yüksək yerdə qərarlaşmışdı: "Doing Business 2020" hesabatında Azərbaycanın ən islahatçı 20 ölkə siyahısına daxil edilməsi onu göstərir ki, Azərbaycanın biznes mühitinin və iqtisadiyyatının şəffaflaşdırılmasında sahibkarlığa dövlət tərəfindən verilən dəstək dünyanın ayrı-ayrı ölkələrinin təşkilatlarının diqqət mərkəzindədir.

Ötən illər ərzində aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub. Bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Qeyri-neft sektorunun inkişafına maliyyə yatırımları edilir. Qeyri- neft sektorunun inkişafı, əhalinin sosial rifah halının yaxşılaşdırılması, bütün sahələrdə intellektual kadrların hazırlanması yönündə ciddi islahatlara atart verilib və bu islahatlar bu gün də davam edir. Azərbaycan bir sıra beynəlxalq və irihəcmli layihələrə qoşulub. Hətta həmin layihələrin təşəbbüskarı kimi çıxış edir.

Ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə də əhəmiyyətli irəliləyiş baş verib.

Təkcə son 2 il ərzində Azərbaycan hökuməti tərəfindən kifayət qədər xalqın sosial, iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində addımlar atılıb: "Bu addımlar ayrı-ayrı sosial qruplara aiddir və təbii ki, bu təbəqənin içərisinə iş adamları, sahibkarlar da daxildir. Son zamanlar hökumətin dəstəyi nəticəsində Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı verilən qərarlar rəsmi statistikalarda da bu sahədə vəziyyətin necə dəyişdiyini əyani sübut edir. Bütün bunlar, eyni zamanda xarici investisiyaların ölkəyə daxil olmasına, ölkənin beynəlxalq imicinə təsir göstərir. Təsadüfi deyildir ki, bu gün dünyanın hər bir ölkəsi və şirkəti tərəfindən Azərbaycana investisiya qoymaq, korporasiya şirkətlər açılması istiqamətində işlər aparılır. Bu o deməkdir ki, onlar Azərbaycandan qaçmırlar. Bu kimi hesabatlar da ölkəmizin və xalqımızın imicinə müsbət təsir göstərir.

Prezident İlham Əliyevin siyasi iradəsi ilə aparılan kompleks islahatlar nəticəsində "Doing Business" və digər beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin irəliləməsi ölkənin investisiya cəlbediciliyini artırmaqla, qeyri-neft sektoruna sərmayə qoyuluşunu asanlaşdırır. Azərbaycan 270 milyard ABŞ dollarından çox sərmayə cəlb etməklə hər nəfərə düşən sərmayə həcminə görə regionun lider dövlətidir".

***Ceyhun Rasimoğlu***

# Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağda keçirilən qondarma "seçkiləri" qətiyyətlə pisləyib



Türkiyə KİV-lərində martın 31-də Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ keçirilmiş qondarma "seçkilər"in beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə pislənməsi ilə bağlı analitik məqalə yayılıb.

AZƏRTAC-ın Türkiyə bürosunun rəhbəri Sabir Şahtaxtının müəllifi olduğu məqalədə Ermənistanın Azərbaycana qarşı davam edən işğalçılıq siyasəti qətiyyətlə pislənir, bu hərbi təcavüz Qafqazda sülhə və sabitliyə təhdid kimi dəyərləndirilir. Türkdilli oxucuların diqqətinə çatdırılır ki, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, NATO, Türk Şurası, GUAM, Avropa Parlamenti, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrləri, habelə çoxsaylı dövlətlər bu qondarma "seçkilər"in və onların nəticələrinin qanunsuz olduğunu bəyan ediblər. Məqalənin tam mətni ilə Avrasiya Araşdırmalar Mərkəzinin (AVİM) və TRT-nin "Türkiyənin səsi" radiosunun rəsmi saytlarında tanış olmaq mümkündür.

# Alən Karbonel: Azərbaycan hökuməti mövcud böhranla bağlı müstəsna tədbirlər görüb




Azərbaycanda COVID-19 epidemiyası ilə bağlı vəziyyətə nəzarət hökumət tərəfindən aparılır. Sərhədlər, quru, hava və dəniz yolları bağlanıb, ölkədə karantin tətbiq olunub. Əhali testdən keçirilir, xaricdən gələn 4 mindən çox azərbaycanlı karantində saxlanılır.

AZƏRTAC xəbər verir ki, bu sözlər Fransanın SUEZ şirkətinin Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə regional direktoru, Fransa Xarici Ticarət Şurasının Cənubi Qafqaz üzrə prezidenti Alən Karbonel ölkəmizdə yeni koronavirus epidemiyası ilə bağlı vəziyyətdən danışarkən deyib. Onun videoçıxışı "MEDEF International" şirkətlər qrupunun rəsmi internet saytında və "Linkedin" səhifəsində yerləşdirilib.

A.Karbonel ölkəmizdə COVID-19 virusuna yoluxanlara, bu virusdan ölənlərlə dair statistikanı səsləndirib. Azərbaycanda karantin rejiminə riayət edilməsi məqsədilə tətbiq edilən qaydalardan, xüsusilə də aprelin 5-dən həyata keçirilən SMS sistemindən danışıb. Bildirib ki, bütün bu tədbirlər COVID-19-un yayılmasının qarşısını almaq məqsədi daşıyır. Bəzi zəruri müəssisələrin fəaliyyətini davam etdirdiyini diqqətə çatdıran Alən Karbonel hökumətin mövcud böhranla bağlı müstəsna tədbirlər gördüyünü vurğulayıb. Ölkəmizdə kiçik və orta müəssisələrə, eləcə də əhaliyə dəstək baxımından hökumətin böyük məbləğdə vəsait ayırdığını bildirib. Azərbaycandakı fransız müəssisələrinə tövsiyələrini çatdıran regional direktor karantindən sonra yeni vəziyyətə adaptasiyanın əhəmiyyətinə toxunub.

# Dövlət və xalq naminə möhtəşəm uğurlar

***"Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını yüksək səviyyədə təmin edib". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamaləddin Qafarov deyib.***



O, qeyd edib ki, müasir dövrümüzdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prioritet sahələrin inkişafının təmin edilməsinə hesablanan islahatlar, qlobal miqyasda meydana çıxan yeni çağırışları, cəmiyyətin sosial sifarişlərini əhatə edir: "Bu da öz növbəsində Azərbaycanın dinamik inkişafını, ölkəmizdə əmin-amanlığın, sabitlik və təhlükəsizlik şəraitinin təmin edilməsində önəmli faktorlardır. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası sayəsində hər bir sahənin paralel inkişafı yüksək səviyyədə təmin olunub və bu proses davam etməkdədir. Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlərin qurulması, eləcə də Azərbaycanın çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarı qismində çıxışı dövlətimizin uğurlu xarici siyasətini özündə ehtiva edir. Xarici siyasətdə yaxın qonşularla birgə layihələrin həyata keçirilməsi və həmin ölkələrlə münasibətlərdə yeni yanaşma, Avropa və Avropa İttifaqı ölkələri ilə münasibətlər, yeni sazişlərin imzalanması mövcud əlaqələrin daha da yüksəlməsini göstərir".

Milli Məclisin deputatı K.Qafarov Prezident İlham Əliyevin hər zaman bəyan etdiyi "güclü olmaq, dünyada söz sahibi olmaq üçün iqtisadiyyatımız güclü olmalıdır" fikrini vurğulayaraq, iqtisadi inkişafımızın ölkəmizdə mütərəqqi sosial siyasətin həyata keçirilməsində, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də əhəmiyyətli olduğunu diqqətə çatdırıb. "Sosial siyasətin uğurla həyata keçirilməsinin məntiqi nəticəsi olaraq, sosial müdafiə və təminat sistemi gücləndirilib"- deyən millət vəkili görülən işlərin, aparılan siyasətin göz önündə olduğunu diqqətə çatdırıb: "Bu günlərdə Milli Məclisin iclasında Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında hesabat dinlənildi və məqbul qəbul olundu. Bildiyimiz kimi, ötən il Azərbaycanın bütün sahələrində irimiqyaslı köklü islahatlar həyata keçirilmişdir. Azərbaycanın davamlı inkişafı, makroiqtisadi və maliyyə dayanıqlığı, xalqımızın sabitlik və təhlükəsizliyi istiqamətində ardıcıl işlər görülmüşdür. Həyata keçirilən davamlı siyasi, iqtisadi, sosial və digər sahələr üzrə islahatlar nəticəsində 2019-cu ildə çoxşaxəli inkişafımız daha da sürətlənmişdir. Cənab Prezidentin təşəbbüsü ilə ötən il 4,2 milyon insanı əhatə edən iki böyük sosial paketin reallaşdırılması bir daha dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığının bariz nümunəsidir. Qazanılmış nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da əksini tapmış, Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkəsi siyahısına salmış və hazırda ölkəmiz inkişaf templərinə görə dünya miqyasında 35-ci yerdə qərarlaşmışdır".

Həqiqətən də, Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə və əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Bu gün Prezident İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. "Azərbaycan hakimiyyətinin yürütdüyü dərin məzmunlu sosial siyasət, həqiqətən də, inqilabi xarakter daşıyır", - deyən K.Qafarov vurğulayıb ki, 2003-cü ildən 2020-ci ilədək Cənab Prezident İlham Əliyevin Prezidentlik dövründə gördüyü irimiqyaslı işlər ölkənin iqtisadi qüdrətinin və onun beynəlxalq nüfuzunun artırılmasına, əhalinin rifah halının yaxşılaşdırılmasına səbəb olub: "Xalq və dövlət naminə bütün istiqamətlərdə möhtəşəm uğurlara imza atılıb. Dövlət başçısının gördüyü işlər onun bir daha hər bir vətəndaşın Prezidenti olduğunu təsdiq edir. Ən çətin anlarda dövlət başçısı öz vətəndaşının yanındadır. Azərbaycan dövləti üçün insan amili hər zaman ən vacib amil olub, bü gün də belədir. Müxtəlif resurslardan əldə edilən gəlirlər, ilk növbədə, əhalinin sosial xərclərinə yönəldilir. İlham Əliyev tərəfindən koronavirus infeksiyasının ölkəmizdə yarada biləcəyi təhlükənin aradan qaldırılması və əhalinin sağlamlığının qorunması istiqamətində lazımi addımlar atılır. Dövlətimiz tərəfindən koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi, bəzi sosial izolyasiya tədbirlərinin tətbiq edilməsi barədə qərarlar verilib və əməli tədbirlər reallaşıb. Dövlət tərəfindən tətbiq olunan qaydalar əhalinin təhlükəsizliyinin, sağlamlığının təmin edilməsinə yönəldilib. Hər bir vətəndaş qaydalara maksimum əməl etməyə çalışmalıdır. Görülən tədbirlərin davamı olaraq cənab Prezident bu günlərdə "Koronavirus pandemiyasına qarşı Azərbaycan Respublikasında həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün vəsait ayrılması haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, bu məqsədlə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 97 milyon manat ayrıldı. Həyata keçirilən tədbirlər, bir daha göstərir ki, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, eləcə də, qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələlərdəndir."

K.Qafarov sonda onu da bildirdi ki, Prezident İlham Əliyev aprel ayının 6-da məhkum edilən bir sıra şəxslərin əfv olunması haqqında Sərəncam imzalamışdır. Koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan yaşı 65-dən yuxarı 176 nəfər məhbus cəzasının çəkilməmiş hissəsindən azad olundu. Azərbaycan dövlətinin bu addımı da humanizm və insanpərvərlik kimi ali dəyərlərə söykənir. Azərbaycan vətəndaşı ölkə rəhbərinin həyata keçirdiyi siyasəti dəstəkləyir. Uğurları şərtləndirən amil isə dövlətlə xalqın birliyidir!

***Zümrüd BAYRAMOVA***

## "Dağlıq Qarabağda keçirilən "seçkilər"in heç bir legitimliyi yoxdur"



"Bəşəriyyətin sınağa çəkildiyi və Azərbaycanın da dünya ilə həmrəylik nümayiş etdirdiyi bir vaxtda Ermənistanın yenə də öz məkrli siyasətindən əl çəkmədiyinin şahidi olduq. Belə ki, dünyanın ürəyinin tək bir arzu ilə çırpındığı zaman Ermənistan nəinki bu qorxunc virusla mübarizə aparmaq məsələsində ümumi axının əksi istiqamətində hərəkət edir, hətta Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağda "seçkilər" keçirməklə şou göstərir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

O bildirib ki, hazırki dövrdə separatçı rejimin belə bir addım atması tək Azərbaycana qarşı deyil, eyni zamanda, beynəlxalq aləmə meydan oxumaq deməkdir. Onun sözlərinə görə, birincisi, bu, bir daha onu sübut edir ki, humanizm prinsiplərini pozan Ermənistan üçün bir dövlət olaraq koronavirus pandemiyasının insanların həyatına necə təsir edəcəyi maraqlı deyil: "İkincisi isə işğalçı Ermənistan Dağlıq Qarabağda "seçki" keçirməklə bir daha beynəlxalq hüququ saymadığını nümayiş etdirdi".

Politoloq söyləyib ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonun işğal edildiyini artıq bütün dünyaya məlumdur: "Əvvəla, bu beynəlxalq hüququn bütün norma və prinsiplərinin kobudcasına pozulması deməkdir. Bu ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə aparılıb ki, belə bir şəraitdə "seçkidən", beynəlxalq hüquq normaları çərçivəsində dövlətlər üçün müəyyənləşdirilən və onlara xas olan hər hansı bir fəaliyyətdən söhbət gedə bilməz. Çünki seçki beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilən bir hadisə olmaqla yanaşı, eyni zamanda, beynəlxalq münasibətlər sisteminin tamhüquqlu üzvü olan dövlətlər tərəfindən həyata keçirilir ki, bu, həm də beynəlxalq standartlara cavab verən bir tələbdir".

Ş. Həsənova vurğulayıb ki, Ermənistanın özünün də üzv olduğu ATƏT-in 1990-cı il Kopenhagen Sənədi demokratik seçkilərlə bağlı bu qurumun əsas prinsipidir: "Bu sənəd təşkilata üzv ölkələrin prosesləri davamlı və ədalətli tətbiq etməsi üçün bütün öhdəlikləri özündə ehtiva edir. Deməli, Azərbaycanın işğal edilmiş ərazisi olan Dağlıq Qarabağda "seçki" keçirilməsi Ermənistanın təşkilata üzv ölkə kimi bu prinsipi və təşkilat qarşısında götürdüyü bütün öhdəlikləri kobudcasına pozması deməkdir. Bu "seçkilər" beynəlxalq hüququn aktorları tərəfindən qəbul olunan normal seçkilərdən tamamilə fərqlidir və heç bir legitimliyi yoxdur".

***Nailə Məhərrəmova***

## Koronavirusa yoluxmuş xəstələrin müalicəsi uğurla davam etdirilir



Azərbaycanda koronavirus pandemiyasının yayılmasının qarşısını almaq üçün vaxtında qabaqlayıcı tədbirlər görülüb. Ölkədə həyata keçirilən əks-epidemik tədbirlər bu gün də davam etdirilir. Koronaviruslu xəstələrin müalicəsi üçün 20-dən çox tibb müəssisəsi ayrılıb. Onlardan biri də Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasıdır. Klinikanın həkim heyətinin, bütünlükdə personalının koronavirusla mübarizədə rolu danılmazdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri klinikanın direktoru, professor Surxay Hadıyev deyib. Onun sözlərinə görə, koronavirusa yoluxmuş xəstələrin müalicəsi uğurla davam etdirilir. Xəstələr arasında ağır vəziyyətdə olanı yoxdur. Klinikanın həkimləri bu çətin vaxtda öz fədakarlıqlarını nümayiş etdirirlər. Qeyd edək ki, ötən ilin dekabrında Çinin Uxan şəhərində aşkarlanan və sonradan digər ölkələrdə də yayılan koronavirus Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemik virus elan olunub. Bu infeksiya bir neçə ay ərzində demək olar ki, bütün dünyaya yayılıb.

## Eşitmə və nitq qabiliyyəti olmayanlar üçün portal istifadəyə verildi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə "Uşaq və Gənclərin İnkişafına Dəstək" İctimai Birliyi tərəfindən eşitmə və nitq qabiliyyəti olmayan sağlamlıq imkanları məhdud şəxslər üçün video portal (www.surdotv.az) istifadəyə verilib. Nazirlikdən SİA-ya bildirilib ki, bu qəbildən olan şəxslərin informasiya əldə etmək hüquqlarının təmin olunmasında bərabər imkanların yaradılması məqsədinə xidmət edən layihə xüsusilə indiki dövrdə xüsusi karantin rejimi, sosial izolyasiya tədbirləri ilə əlaqədar #evdeqal çağırışına bir dəstəkdir.

Maraqlı TV veriliş və proqramlar, 70-dən çox milli və xarici film, 7 cizgi filmi, eləcə də bir çox məlumatlandırıcı və əyləncəli video materiallar, həmçinin koronavirusdan qorunma üsulları barədə məlumatlar surdo-tərcümə olunaraq video portalına yerləşdirilib. Bu da eşitmə və nitq qabiliyyəti olmayan şəxslərin internet üzərindən video məlumat almasına, dolğun informasiyalar əldə edərək cəmiyyətə inteqrasiya olunmalarına zəmin yaradır.

Məlumatlandırıcı və əyləncəli video materialların müvafiq formatda hazırlanaraq saytda yenilənməsi də təmin edilir və bununla bağlı, həmçinin hansı filmi, serialı və ya verilişi görmək istəklərini izləyicilər sayta yaza bilərlər.

# Pandemiyadan ölkə iqtisadiyyatının qorunması vacibdir

***Ötən ili, 2019-cu ili Azərbaycan uğurla başa vurdu. Hesabat ili iqtisadi, sosial və digər sahələrdə irəliləyişlərlə, müsbət nəticələrlə yadda qaldı. Bu isə öz növbəsində cari il üçün təbii ki, nikbin proqnozlar demək idi. Ötən ilin uğurlarının cari il üçün daha böyük uğurlara, daha geniş miqyasda müsbət nəticələrə zəmin yaratması ondan xəbər verirdi ki, dövlətimiz bundan da artıq uğur qazanmaq, müsbət nəticələr əldə etmək əzmi ilə yeni ilə qədəm qoyub. Bu yerdə, "sən saydığını say, gör fələk nə sayır" zərb məsəli yada düşür və dərhal pandemiya, eləcə də onun vurduğu zərərli təsirlər xatırlanır.***



Ötən ilin nəticələrinə nəzər salsaq görərik ki, ölkəmizdə iri həcmli layihələr uğurla həyata keçirilib. Keçən il 4,2 milyon nəfəri əhatə edən iki böyük sosial paket reallaşdırılıb, minimum əməkhaqqı 1 ildə 2 dəfə artırılaraq 130 manatdan 250 manata, minimum pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bütün bunlarla yanaşı, illərlə vətəndaşları narahat edən, dolların məzənnəsində olan artımlarla əlaqədar yaranan problemli kreditlər məsələsi də həllini tapıb.

"Kölgə iqtisadiyyatı"na qarşı aparılan mübarizə, büdcə-fiskal, gömrük və vergi sahəsində aparılan islahatlar sayəsində nəyə nail ola bildik? Nailiyyətlər çox oldu və ilk növbədə onu vurğulamaq yerinə düşərdi ki, 2019-cu ildə vergi və gömrük orqanlarının xəttilə büdcəyə 1 milyard manat əlavə vəsait daxil oldu. Nəzarət mexanizminin gücləndirilməsi, "qara mühasibatlığa", "kölgə iqtisadiyyatına" son qoyulması, gömrük və vergi orqanlarında şəffaflığın təmin edilməsi, nəticədə əlavə olaraq büdcəyə 1 milyard manat vəsaitin daxil olması ilə geniş spektrda imkanlar yaratdı. Bu imkanlar da dövlət tərəfindən əhalinin sosial, iqtisadi cəhətdən müdafiəsini yaxşılaşdırmaq üçün islahatları dərinləşdirmək üçün imkanlar demək idi.

Ötən ilki uğurların davamı kimi qeyd edə bilərik ki, bu il də vergi və gömrük orqanları ən qısa dövr ərzində belə müvəffəqiyyətləri ilə yadda qaldı. Belə ki, ilk 3 ayda dövlət büdcəsinə vergi orqanları 221 milyon manat, gömrük orqanları isə 91 milyon manat vəsait daxil ediblər. Bu isə o deməkdir ki, bu orqanlar cəmi 3 ay ərzində dövlət büdcəsinə əlavə olaraq 300 milyon manat vəsait cəlb ediblər. Məntiqi hesablamalar onu deməyə əsas verir ki, bu gedişlə cari ilin sonuna ötən ilkindən daha çox, yəni daha dəqiq desək ən azı 1,2 milyard vəsaitin cəlb olunması gözlənilirdi. "Əlbəttə, bizim ümidlərimiz ondan ibarət idi ki, il boyunca bu dinamika özünü saxlayacaq, beləliklə, büdcəmizə əlavə gəlirlər gələcək və bunun hesabına əlavə sosial proqramların icrası mümkün olacaq", deyə Cənab Prezident də xüsusilə bu barədə haqlı olaraq vurğulayıb. Amma qeyd etdiyimiz kimi, vəziyyət tamam başqa məqamlardan xəbər verir və bütün dünyanı cənginə alan, ÜST tərəfindən pandemiya kimi tanınan bu vəziyyət tamam fərqli halı diqtə edir.

Qeyd etmək lazımdır ki, pandemiya iqtisadiyyata ciddi şəkildə zərər vurdu. Bu zərər təkcə Azərbaycan iqtisadiyyatına deyil, ümumilikdə dünya iqtisadiyyatına nəinki zərər, hətta zərbə vurdu. Bütün dünya ölkələri, eləcə də Azərbaycan iqtisadiyyatı ciddi bir şok yaşamalı oldu ki, bu zamana qədər beləsi hələ müşahidə olunmamışdı. Doğrudur, bundan öncə də dünyada hansısa virus, quş qripi, donuz qripi kimi bəlalar peyda olub. Amma etiraf edək ki, onların heç biri bu yekəlikdə dünyada bu tərzdə həyəcan siqnalı doğurmayıb. Hələ bu vaxta qədər bütün dünya bu şəkildə karantin rejiminə keçməyib. Yer planeti bu zamana qədər bu şəkildə təhdid qarşısında qalmayıb.

Məsələ burasındadır ki, başda Ümumdünya Səhiyyə Təşkilatı olmaqla bütün dünya ölkələri virusla, pandemiya ilə mübarizəyə qalxsa da, hələ ki, ortada konkret nəticə yoxdur. Ən acınacaqlısı isə odur ki, proses hələ də davam edir, hələ də istər sağlamlığa, istərsə də iqtisadiyyata zərər vurmaqdadır. Hər gün ÜST dünya üzrə yoluxma və ölüm halları barədə məlumat yayır. Elə ölkələr, məsələn Avropa ölkələri, ABŞ kimi elə dövlətlər var ki, hələ də hər gün anti-rekord göstərici ilə planetin sakinlərinin diqqətini cəlb edir. Bir sözlə, prosesin belə bir şəkil alması sonu barədə söz söyləməyə imkan vermir və nə vaxt qutaracağı da bilinmir. Bu isə, öz növbəsində, çox çətin vəziyyət yarandığını təsdiq edir. Hadisələrin gedişi dünya dövlətlərinin qarşısında mühüm vəzifələr qoyur. Hər bir ölkə özünəməxsus şəkildə bu vəziyyətə yanaşma nümayiş etdirir. Azərbaycan dövləti, ölkəmiz isə qarşısına birdən-birə iki olduqca vacib və mühüm məsələni həll etmək vəzifəsi qoyub ki, bunlardan birincisi əhalinin sağlamlığının qayğısına qalmaq, ikincisi isə ölkə iqtisadiyyatını qorumaq və sığortalamaqdır. Neftin qiymətinin kəskin şəkildə aşağı olduğu, həmçinin maliyyə və iqtisadi sarıdan daxili vəziyyətin bu şəklə düşdüyü bir dövrdə baş verə biləcək misilsiz tənəzzüldən sığortalanmaq hazırda ən başlıca iş hesab olunur.

Ölkəmiz, hökumətimiz yaranmış vəziyyətlə əlaqədar çevik reaksiya verdi. Qeyd edilən hər iki vəzifəni həll etmək istiqamətində operativ qərarlar qəbul etdi. Hazırki vəziyyət özü də təsdiq edir ki, bu operaqtivlik təqdirəlayiqdir və sözün əsl mənasında alqışlanmalıdır. Bir-birinin ardınca təsdiq edilən dövlət proqramları bütün sahələri əhatə etdi və sözsüz ki, əhalinin, Azərbaycan vətəndaşlarının üzrəyincə oldu. Bu istər sahibkarlıq sahəsinə, istərsə də ehtiyacı olanlara ayrılan vəsaitlərdə öz əksini tapıb ki, nəticədə ölkə vətəndaşı dövlət başçısının qayğısını hiss edir. Təsadüfi də deyil ki, Cənab Prezidentin ünvanına minnətdarlıq məktubları gəlməkdə davam edir. Ölkə vətəndaşları ünvanladıqları minnətdarlıq məktublarında bəşəriyyəti bürüyən bu bəladan onların xilas olmaları istiqamətində dövlət başçımızın göstərdiyi diqqət və qayğıdan razılıqlarını ifadə edirlər.

Heç şübhəsiz ki, keçən il sosial sahədə aparılan islahatların davamı bu il də, cari il üçün də nəzərdə tutulmuşdu. Ötən ildə olduğu kimi, 2020-ci ildə də bəzi sahələr üzrə əməkhaqlarının əlavə olaraq artırılması nəzərdə tutulurdu. Cari ildə artımlar üçün 4 milyard manata qədər əlavə vəsait xərclənəcəyi planlaşdırılırdı. Amma reallıqlarla barışmaq lazım gəlir və nəzərə almaq lazımdır ki, həmin 4 milyard manatın artıq yarısından çoxu, yəni, 2,5 milyardı koronavirus təyinatlı oldu. Məsələ burasındadır ki, ölkə vətəndaşı çox yaxşı başa düşür ki, bu vəsaitlər belə, əslində, onların sağlamlığı, rifahı üçündür. Yəni, yenə də ölkə vətəndaşları üçündür və dövlətimizin siyasətinin mərkəzində vətəndaş amili dayanır. Vətəndaşlarımız onu da başa düşürlər ki, ən əsas məqsəd, həm cəmiyyətimizin sağlamlığının, həm də iqtisadiyyatımızın sığortalanması olmalıdır və dövlətimizin məqsədi də elə budur.



# Həyazıslığın son həddi

## Əli Kərimli bu vaxta qədər sıravi partiyadaşlarının maaşlarını veribmi?



AXCP sədri Əli Kərimlinin pulgirliyi, ümumiyyətlə, pula-paraya görə hətta ən yaxın adamlarını belə satmaq "məharətində" olması kimsəyə sirr deyil. Ümumiyyətlə, nəinki yaxın adamlarını, eləcə də, dövlət maraqlarını və s. bu kimi amilləri maddi vəsaitə dəyişən cəbhəçilərin sədrinin indi sosial şəbəkədə kimə gəldi pul paylanılması ətrafındakı tələbləri anlaşılan deyil. Onun eyni zamanda, "Milli Şura"dakı və partiyasındakı tərəfdarlarının karantin rejimini pozmalarının və inzibati cəzalar almalarının ardınca bu vəziyyəti siyasiləşdirib, dərhal xaricdəki erməni havadarlarına göstərməsi də sübut edir ki, onun əsas məqsədi pul qazanmaqdır. Bütün bunların müqabilində dövlətdən kimə gəldi pulun ödənilməsi tələbini irəli sürməsi isə əslində həyasızlığın son həddidir. Çünki dövlət yalnız sosial vəziyyəti yaxşı olmayan, ehtiyaclı insanlara maliyyə yardımları edir və həmin maliyyədən axtarsaq, AXCP-də və s. müxalifət partiyalarında təmsil olunan şəxslər də faydalanırlar. Amma...

### Əcəba, onun belə münasib dostları varsa, onda hansı səbəbdən aldığı pullardan ehtiyaclı cəbhəçilərə ödəmir?

Gəlin görək, Ə.Kərimli ümumiyyətlə hazırkı dövrə qədər onun üçün həbslərə düşən, təhsillərini yarımçıq qoyub, çirkin siyasətinə bulaşan tərəfdarlarına - aldadılmış kəvakiblərə ömründə bir dəfə də olsun əmək haqqı ödəyibmi? Yaxud, aldığı qrantlardan bölüşdürübmü? Əsla! Çünki ona sərf etmir. Əksinə, bunun yerinə öz ailəsini, gül balalarını yağ-bal içində dolandırıb, adını da qoyur ki, "dostlar kömək edir" (?!). Əcəba, onun belə münasib dostları varsa, onda hansı səbəbdən aldığı pullardan ehtiyaclı cəbhəçilərə ödəmir? Bu sualların cavabının verilməyəcəyini indidən demək olar. Belə ki, cavab vermək də, Ə.Kərimliyə sərf etmir...

### AXCP-nin sıravi təmsilçiləri haqlı olaraq, ondan öz əmək haqlarını tələb etməli olacaqlar

Halbuki, ondan fərqli olaraq digər müxalifət partiyalarının sədrləri hətta hesabat da verirlər, maliyyə xərclərini göstərirlər. Ancaq Ə.Kərimli sədri olduğu partiyanın qanunların tələb etdiyi hesabatını da vermir. Əgər sabah qanunlar əsasında onun partiyasının möhürü və ştampı ləğv olunarsa, onda görün həmin bu pulbaz və xəbis Ə.Kərimli daha hansı həyasızlıqları törədib, şalvarını sözün əsl mənasında başına çəkəcək!

Hələlik isə, Ə.Kərimli necə deyərlər çənə vurur, ətrafındakı Gültəkinlər, Eldənizlər, Cəmillər və başqaları da ona əl çalırlar. Ancaq fakt budur ki, AXCP sədrinin sosial şəbəkələrdəki pafoslu ifadələri bir gün onun öz başında çatlamalı olacaq. Çünki AXCP-nin sıravi təmsilçiləri haqlı olaraq, ondan öz əmək haqlarını tələb etməli olacaqlar.

***Rövşən RƏSULOV***

# Tramp kəşfiyyatın xəbərdarlığını "feyk" adlandırdı: "Səhv edirlər!"


Donald J. Trump
@realDonaldTrump
Thank you Frank. It's ABC Fake News. They knew they were wrong when they went with this Hoax of a story! twitter.com/frankluntz/sta ...

Frank Luntz @FrankLuntz
ABC News cited two "sources" today saying that Trump had received an intel briefing in November 2019 warning of an impending #coronavirus pandemic.

ABŞ prezidenti Donald Tramp Amerika kəşfiyyatının 2019-cu ildə koronavirus pandemiyası ilə bağlı verdiyi informasiyanın feyk olduğunu bildirib. O, bu barədə özünün Twitter səhifəsində yazıb. "Bu feyk xəbərləri ABC ABC News tə- siyasını hələ 2019-cu ilin noyabrında koronavirus təhlükəsi ilə bağlı xəbərdar etdiyini bildirib. Guya onda kəşfiyyatçılar məruzə ilə çıxış edərək infeksiya barədə məlumat veriblər. Hətta Uhan sakinlərinin tədricən yoluxduğu, gələ-

# Dünyada g... koronaviru...

## Avstraliyada 7000 ... dollar, Filippində ... və Vyetnamda

***Koronavirus təhlükəsinin dünyada tüğyan etməsi, xüsusilə insanların belə bir ağır vəziyyətdə dövlətlərinin qoyduğu qanun tələbləri pozmaları nəticədə cərimələrlə nəticələnir. Karantin rejiminin pozulması, icazəsiz qaydada çölə çıxılması kimi hallarda bir sıra ölkələrdə müxtəlif cəzalarla ölçülür. Azərbaycanda sıravi vətəndaşın karantin rejimini pozmaları 100 manat və s. rəqəmlərlə ölçülür. Bəs xarici ölkələrdə vəziyyət necədir?***



### Məsuliyyətsizliyin nəticələri...




Apardığımız araşdırma nəticəsində m... lum olub ki, Kiprdə evdən gündə bir də... çıxmağa icazə verilir, avtomobildə isə, ... çox üç nəfər əyləşə bilər. Buna qədər SM... vasitəsi ilə müvafiq quruma müraciət gö... dərmək tələb edilir. Beləliklə, Kiprdə kimi... sə icazə SMS-i olmazsa 300 avro cərim... ödəməli olur.

Avstraliyada isə karantin rejiminin p... zulması daha ağır cərimələrlə müşahi... edilir. Buna görə insanlar 7000 ABŞ dolla... cərimə olunurlar.

Filippində isə karantin qaydalarını p... zanlar xəbərdarlıq edilmədən güllələnirlə... Belə ki, ölkə başçısının bu barədə orduya ...

# Münaqişədə olan tərəflərin mülki tibbi heyəti

***Peşə etikası qaydalarına müvafiq qaydada tibbi vəzifələri yerinə yetirdiklərinə görə tibbi heyət cəzalandırıla və təqib edilə bilməz. Tibbi heyət yaralı və xəstələr haqqında məlumatları verməyə məcbur edilə bilməz. Burada söhbət tibbi heyətin güman etdiyi kimi yaralı xəstələrin özlərinə və onların ailələrinə ziyan vuran mə'lumatlardan gedir. E.David qeyd edir ki, I Əlavə Protokolun kommentariyasında "ziyan vuran" anlayışı izah edilmədiyinə görə o geniş mənada şərh edilməlidir. Bu qayda yaralı və xəstələrlə tibbi heyət arasında etibar münasibətinin yaranmasına kömək edir. Lakin bu qaydadan iki istisna vardır:***

- yoluxucu xəstəliklər barədə hökmən məlumat verilməlidir;

- bir çox dövlətlərin daxili qanunvericiliyi tibbi heyətin məlumatların verməsini nəzərdə tutur. Tibbi heyətin mühafizəsinin bir istiqaməti də onların əsir götürülməkdən immunitet hüququna malik olmalandır. Bu hüquqa aşağıdakı kateqoriya tibbi heyət malikdir:

- münaqişədə iştirak edən tərəflərin sərəncamına verilən neytral dövlətlərin və ya bu cür dövlətin cəmiyyətinin tibbi heyəti;

- BQXK tərəfindən göndərilmiş tibbi heyət;

- qospital gəmiləri və sanitar aviasiya təyyarələrinin tibbi heyəti. Əgər birinci qrupa aid tibbi heyət münaqişədə olan tərəfin düşmənin əlinə düşərsə ona öz ölkəsinə və hətta göndərildiyi ölkənin ərazisinə qulluğa qayıtmağa razılıq verilməlidir. Lakin onun qayıtması hərbi mülahizələrin imkan verdiyi və yol açıldığı vaxt həyata keçirilir. İkinci kateqoriyaya aid şəxslər isə dərhal repatriasiya olunmalı və həmin şəxslərlə BQXK və münaqişədə olan tərəfin bağladığı sazişə müvafiq olaraq onlar yenidən tərəflərin birinin sərəncamına göndərilməlidir.

Aşağıdakı tibbi heyət prinsip etibarı ilə əsir götürülə bilməz. Lakin müəyyən şərtlər gözlənilməklə tutula (saxlanıla) bilər:

- daimi hərbi tibbi heyət;

- münaqişədə olan tərəfin hərbi tibbi xidmətinə verilmiş milli könüllü yardım cəmiyyətləri (məsələn, Qızıl Xaç və Qırmızı Aypara milli cəmiyyəti) tibbi heyəti.- münaqişədə olan tərəfin mülki tibbi heyəti.

Prinsip etibarı ilə bu kateqoriyaya aid olan şəxslər "hərbi mülahizələrin imkan verdiyi və yol açıldığı vaxt" repatriasiya edilməlidir. İlk iki kateqoriyaya mənsub olan şəxslər hərbi əsirlərə qayğı göstərilməsi üçün saxlanıla da bilər. Lakin onlar hərbi əsirlərin sayı və sağlamlıq vəziyyəti tələb etdiyi qədər və bu məqsəd üçün zəruri olan sayda saxlanıla bilər. Saxlanılmaq üçün bu cür tibbi heyət seçilərkən heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Bu zaman onların özlərinin sağlamlıq vəziyyəti nəzərə ahna bilər. Bu qaydada saxlamlan tibbi heyət üzvləri hərbi əsir sayılmırlar. Buna baxmayaraq, onlar oh azı "Hərbi əsirlərlə rəftara dair" Cenevrə Konvensiyasının bütün müddəalarından faydalanmalıdırlar. Onlar himayədə olan şəxsləri saxlayan Dövlətin hərbi qanun və qaydaları çərçivəsində və onun səlahiyyətli xidmətinin nəzarəti altında, öz peşə etikalarına uyğun olaraq, əsasən özlərinin mənsub olduqları silahlı qüvvələrdən olan hərbi əsirlərin xeyrinə öz tibbi və mənəvi borclarını yerinə yetirməkdə davam etməlidirlər. Müvəqqəti hərbi tibbi heyətin üzvləri (ICK mad 29) düşmən əlinə keçərsə, hərbi əsir statusuna malik olurlar və zərurət yaranarsa, tibbi vəzifələrin yerinə yetirilməsi üçün istifadə olunurlar.

Qeyd etmək lazımdır ki, CK-da ruhani heyəti də tibbi heyətə bərabər tutulur və eyni mühafizəyə malikdir. "Ruhani heyət" yalnız öz dini vəzifələrini yerinə yetirən və aşağıdakılara təhkim olunan həm hərbi, həm də mülki şəxslər, məsələn, keşişlər deməkdir:

1) münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinə;

2) münaqişədə iştirak edən tərəfin tibbi birləşmələrinə və ya tibbi nəqliyyat vasitələrinə;

3) I Əlavə Protokolun 9-cu maddəsinin 2-ci bəndində göstərilən tibbi birləşmələrə və tibbi nəqliyyat vasitələrinə;

4) münaqişədə iştirak edən tərəfin Mülki Müdafiə təşkilatlarına. II Əlavə Protokolun kommentariyasında qeyd olunduğu kimi "ruhani heyət" ümumi anlayışdır və bütün dinlərə şamil edilir.

4. Hərbi əsirlərin mühafizəsi. Hərbi əsirlər, onlarla rəftar məsələləri silahlı münaqişələri daim müşayət etmiş və tarixin müxtəlif mərhələlərində, tarixi şərait və sərkərdələrin iradəsindən asılı olaraq müxtəlif cür həll olunmuşdur. Tarixi inkişaf digər ictimai münasibətlər kimi hərbi əsirlərlə rəftarın da hüquqi tənzimləmə obyektinə çevrilməsi ilə nəticələnmişdir. Fransis Liberin hazırladığı "Döyüş meydanlarında Birləşmiş Ştatların ordu komandanlığı üçün təlimatlar" - "Liber məcəlləsi" və İsveçrə hüquqşünası Jan-Qaspar Blunşli tərəfindən 1868-ci ildə çap etdirilmiş müasir beynəlxalq humanitar hüququn fundamental kodifikasiyası sənədi hərbi əsirlərlə rəftar qaydaları layihəsinin yaradılmasına dair tələbə təkan verdi. 1907-ci ildə qəbul edilmiş "Quru müharibələri qanun və adətləri haqqında" Əsasnamənin "Hərbi əsirlər" adlanan P fəsli hərbi əsirlərin mühafizəsinin hüquqi rejiminə aid bir sıra mühüm müddəalar nəzərdə tuturdu. Bu Əsasnamədə əksini tapmış müddəaların əksəriyyəti hazırda da qüvvədədir. Bəzi müddəalar isə inkişaf etdirilərək yeni məzmun kəsb etmişdir. Əsasnamədə hərbi əsirlərlə insarpərvərliklə rəftar olunması, onlara məxsus şəxsi əmlakın toxunulmazlığı, hərbi əsirlərin işə cəlb olunması, onların əsirlik vaxtı davranışı, azad olunması qaydası öz əksini tamışdı.

1929-cu ildə Cenevrədə keçirilən diplomatik konfransda hərbi əsirlərlə rəftar barədə konvensiyanın imzalanması qərara alındı. Həmin konvensiyada hərbi əsirlərin hüquqi rejimində aid bir sıra yeni normalar, məsələn, hərbi əsirlərə qarşı repressiyalara yolverilməzliyi, dövlətlər, hərbi əsirliklə bağlı normaların yerinə yetirilməsinin yoxlanılması barədə müddəalar öz təsbitini tapdı. Konvensiyadakı yeniliklərdən biri də ondan ibarət idi ki, 1907-ci il Konvensiyası quru müharibələri adət və qanunlarmı nəzərdə tutduğu halda, onun normaları dəniz və hava münaqişələri zamanı tutulmuş şəxslərə də şamil edilirdi.

II Dünya Müharibəsinin nəticələri hərbi əsirlərlə bağlı beynəlxalq hüquqi normaların daha da təkmilləşdirilməsini tələb edirdi. 1949-cu ildə hərbi əsirlərin mühafizəsinin hüquqi rejimini tənzimləyən "Hərbi əsirlərlə rəftara dair" Konvensiyanın qəbul edilməsi bu sahədə əhəmiyyətli irəliləyişə səbəb oldu. "Konvensiyanın 1949-cu ildə yenidən baxılmasının əsas nəticələrindən biri, əsir götürülənlər arasında hərbi əsir statusu verilməli olanların sayının artması idi". Belə ki, Konvensiya işğal olunmuş ərazilərdəkilər də daxil olmaqla müqavimət hərəkatı iştirakçılarının dörd şərtə cavab verdikdə, həmçinin əsirlikdə saxlayan dövlətin tanımadığı hökumət və ya hakimiyyətə özünü tabe hesab edən silahlı qüvvələrin şəxsi heyətindən olanların tutulduğu halda hərbi əsir statusuna malik olmasını təsbit etdi. Konvensiyanın yeniliklərindən biri də hərbi əsir statusunun prezumpsiyasıdır. Yəni hərbi əməliyyatlarda iştirak etmiş və düşmən əlinə keçmiş şəxslərin hərbi əsir hesab edilib-edilməməsi barədə şübhə yaranarsa, belə şəxslər onların statusu səlahiyyətli tribunal tərəfindən müəyyən edilənədək Konvensiyanın himayəsindən istifadə etmək hüququna malikdirlər. J.Pikte "hərbi əməliyyatların sona çatması ilə hərbi əsirlərin repatriasiyasını konvensiyanın digər mühüm cəhəti kimi qiymətləndirmişdir. Cenevrə Konvensiyalarına I Əlavə Protokolda da hərbi əsirlərlə əlaqədar mühüm yeniliklər öz əksini tapmışdır. Xüsusən, Protokolda hərbi əsir statusundan istifadə etmək hüququna malik olmayan şəxslər kateqoriyasına şamil edilənlərin müəyyənləşdirilməsi mühüm yenilik kimi qiymətləndirilməlidir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası beynəlxalq müqavilələrin vicdanla yerinə yetirilməsi prinsipinə sadiq qalaraq hərbi əsirlərlə rəftar haqqında beynəlxalq hüquqi normaların milli qanunvericiliyə implementasiyası sahəsində məqsədyönlü iş aparır. Bu cəhətdən "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" qanunda hərbi əsirlərlə bağlı bir çox müddəalar öz əksini tapmışdır.

"Hərbi əsirlərlə rəftara dair" III Cenevrə Konvensiyasiyanın müddəaları hərbi əsirlər düşmən əlinə keçdiyi andan tam azad edilənədək və vətənə qaytarılanadək onlara şamil edilir (IIICK mad. 5). Tərəflər məqsədəuyğun saydıqda hərbi əsirlərin mühafizəsi ilə bağlı xüsusi sazişlər bağlaya bilərlər. Lakin bu sazişlər hərbi əsirlərin Cenevrə Konvensiyası ilə müəyyən edilmiş vəziyyətlərinə xələl gətirməməli və Konvensiyanın verdiyi hüquqlan məhdudlaşdırmamalıdır (III CK mad. 6). Bu nöqteyi-nəzərdən E.David 1989-cu ilin dekabrında ABŞ-nın Panamaya müdaxiləsi nəticəsində əsir götürülmüş Panamanın sabiq lideri general Noryeqa üçün Panamanın hərbi əsir statusu tələb etməməsinə görə, onun həmin statusdan məhrum edilməli olması barədə təklifinin hüquqauyğun olmadığını bildirir. Hərbi əsirlər Konvensiya və sazişlərlə onlar üçün müəyyən edilmiş hüquqlardan heç bir halda qismən və bütövlükdə imtina edə bilməzlər (III CK mad. 7). Həmin norma ona əsaslanır ki, silahlı münaqişə elə gərginlik vəziyyətdir ki, adamlar təzyiq altında və ya qorxudan zahiri cəhətdən müstəqil görünə bilən qərarlar qəbul edə bilərlər.

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" qanunun 7-ci maddəsində göstərilir ki, hərbi əsirlərin həmin qanunda müəyyənləşdirilmiş hüquqları ayrılmaz hüquqlardır. Səbəblərindən asılı olmayaraq mülki şəxslərin və hərbi əsirlərin bu hüquqlardan imtina etməsi etibarsızdır. O.L.Tiunov haqlı olaraq qeyd edir ki, "əsir hüququ ilk növbədə hərbi əsirin həyatını qorumağa olan hüququdur".

Hərbi əsirlərin statusunu müəyyənləşdirən əsas müddəalardan biri onların Konvensiya iştirakçısı olan dövlətlər tərəfindən mühafizə altına alınmasındadır. Konvensiyanın 12-ci maddəsinə müvafiq olaraq hərbi əsirlər onları əsir götürmüş ayrı-ayrı şəxslərin və ya hərbi hissələrin deyil, düşmən dövlətin ixtiyarında olurlar. Ayrı-ayrı şəxslərin üzərinə düşə bilən məsuliyyətdən asılı olmayaraq, əsirlikdə saxlayan dövlət hərbi əsirlərlə rəftara görə məsuliyyət daşıyır. Rütbəyə və cinsi mənsubiyyətə aid müddəaları nəzərə almaqla, əsirlikdə saxlayan dövlət bütün hərbi əsirlərlə heç bir ayrı-seçkilik qoymadan eyni cür rəftar etməlidir. "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Qanunun 18-ci maddəsinə əsasən silahlı münaqişə dövründə ayrıca şəxs, şəxslər qrupu, hər hansı təşkilat və ya hərbi hissə tərəfindən tutulmuş şəxslər münaqişədə iştirak edən tərəflərdən biri kimi Azərbaycan Respublikasının ixtiyarında olarkən statusundan, milli mənsubiyyətindən, etiqadından, dilindən, siyasi əqidəsindən, müəyyən sosial qrupa mənsubiyyətindən və buna bənzər başqa meyarlardan asılı olmayaraq öz şəxsiyyət və şərəfinə hörmət görür, habelə qanunda nəzərdə tutulmuş hüquqlardan istifadə edirlər. Hərbi əsirlərlə hər zaman humanist rəftar edilməlidir. Əsirlikdə saxlayan dövlətin öz ixtiyarında olan hərbi əsirin ölümünə səbəb olan və ya hərbi əsirin səhhəti üçün ciddi təhlükə yaradan bu və ya digər qanunsuz hərəkət və ya fəaliyyətsizliyi qadağandır və Konvensiyanın kobud surətdə pozulması kimi qiymətləndirilir. Heç bir hərbi əsir onun tibbi, stomotoloji və ya xəstəxana müalicəsi ilə bağlı mülahizələr və onun maraqları baxımından özünü doğrultmayan fiziki xəsarətə və ya hər hansı xarakterli tibbi və ya elmi təcrübəyə məruz qoyula bilməz.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Dağıdıcı müxalifət siyasi opponentlik mədəniyyətindən uzaqdır

## *Əli Kərimli hələ də nicatını və xilasını ermənipərəst qüvvələrə işləməkdə görür*



Hər zaman belə olub, bu gün də belədir, xalqdan ayrı düşən və fəaliyyətini milli və dövlətçilik maraqlarına qarşı yönəldən dağıdıcı müxalifət koronavirus epidemiyasının dünyanı ağuşuna almasından öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar. Yəni bu ağır və çətin dönəmdə xalqla eyni mövqedən çıxış etməkdənsə, xalqa qarşı pozuculuq yolu tuturlar. Halbuki demokratik müxalifət imicini özündə əks etdirən dövlətlərdə müxalifələr hakimiyyətlə birlik nümayiş etdirir və atılan addımlara, verilən qərararalara öz dəstəyini göstərirlər. Misal kimi Türkiyənin aparıcı müxalifət partiyası olan CXP-nin iqtidara koronavusla mübarizədə öz dəstəyini nümayiş etdirməsini göstərmək olar. Eləcə də, Gürcüstanın 25 müxalif partiyası hakimyyətə müraciət edərək, onunla koronavirusa qarşı mübarizə tədbirlərində eyni mövqedən çıxış etdiyini və aparılan siyasəti dəstəklədiklərini bəyan ediblər. Ancaq Azərbaycan müxalifəti dəyişməz ampluasındadır. Yenə də böhtanlar və anti-Azərbaycan dairələrinin sifarişlərini həyata keçirməyə çalışırlar. Gah sosial şəbəkələrdə yalan və böhtanlar səsləndirir, gah da boşboğazlıqdan ibarət olan iddialar irəli sürürlər. Lakin bunların heç birinin effekti olmayacaq. Çünki xalqın və dövlətin maraqlarının satılması əvəzinə, şəxsi mənafelərin həyata keçirilməsi tarix boyu heç kəsə nəsib olmayıb. Ona görə də, milli maraqların satılması heç bir halda müxalifətə uğur gətirməyəcək. Dövlətimizin dəstəyi, effektiv yardımı ilə koronavirus erasını da adlayacağıq. Bundan sonar isə, AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı, "Milli Şura"nın sədri Cəmil Həsənli və onların bəlli trolları öz layiqli cəzalarını alacaqlar. Cəza deyəndə, bu, o demək deyil ki, həbs ediləcəklər və ya şillətəpiyə qonaq olacaqlar. Xalqın tənəsi, xalqın nifrəti istənilən zor müstəvisində olan cəzadan ağırdır. Bax, müxalifəti xalqın bu cəzası gözləyir.

### Müxalifət tək xalqına deyil, amalına və məsləyinə də xəyanət edir

Cəmiyyətə bəlli olan fakt ondan ibarətdir ki, müxaliflər xalqa qarşı qərəzli mövqedədir. Həm də xarici maraqlı dairələrin sifarişi əsasında istənilən vaxt təxribatlar törətməyə hazırdırlar. Onlar üçün xalq, dövlət məfhumu əsas deyil, başlıca şərt maddi və mənəvi maraqdır ki, bunu da xarici işbazlardan əldə edirlər. Artıq dəfələrlə sübuta yetirilib ki, Ə.Kərimli anti-Azərbaycan dairələrin Bakıdakı təmsilçisidir. Onun xarici ölkələrin əlində alətə çevrilməsi, təxribatçı qüvvələrlə birgə çalışmasını təsdiqləyən çoxsaylı faktlar mövcuddur. "Siyasi karyerasında", xüsusilə ermənilərlə işbirliyini təsdiq edən amillər istənilən qədərdir və bu barədə onun əməllərinin sübuta ehtiyacı yoxdur. Bunu uzun müddət Ə.Kərimli ilə bir cəbhədə təmsil olunanlar da təsdiq edirlər. Bu baxımdan, Ə.Kərimli tək öz xalqına, vətəninə deyil, amalına, məsləkinə, dostluğuna, yoldaşlığına qarşı da xəyanət yolu tutub. BQP başqanı, millət vəkili Fazil Mustafa Ə.Kərimlinin satqınlığının nəticəsi olaraq AXCP-nin bir-neçə dəfə parçalanmasına gətirib çıxardığını bildirib: "Əli Kərimlinin "satılmaması" barədə danışanlar 1995-ci il və sonrakı tarixə bir də nəzər salsınlar. Onda yadlarına düşər ki, Əli Kərimli hakimiyyətlə hansı danışıqlara gedib". BQP başqanı eyni zamanda bildirib ki, Ə. Kərimlinin Əbülfəz Elçibəyə qarşı apardığı mübarizənin arxasında hansı xəyanətlərin və satqınçılığın dayandığını, eləcə də Kərimlinin yanındakıların da kimlər olduğunu xatırlayanlar yaxşı bilirlər: "Ona görə də, kimlərinsə tərəfindən tarixin bu dərəcədə təhrif olunması heç də ciddi qəbul edilmir. Azərbaycan Xalq Cəbhəsində satqınçılığın əsasını Ə.Kərimli və bu gün onun yanında olan adamlar qoyub. Bu səbəbdən də Xalq Cəbhəsi dağılmağa məhkum oldu. Əslində, Azərbaycanda satqın dedikdə, birinci olaraq, Ə.Kərimli yada düşür."

### Əli Kərimli siyasi fəaliyyəti boyu satqınlığı ilə diqqəti özünə cəlb edib

F.Mustafanın qeyd etdiyi kimi 1995-ci ildə AXC-nin mirasına sahib olmaq, partiyaya çevirərək mandat qazanmaq üçün həyata keçirdiyi məkrli planlar nəticəsində Xalq Cəbhəsi dörd yerə bölündü. Cəbhənin möhürünə sahib olmaq üçün ətrafındakılara qarşı təxribatlar törədərək "Cəbhənin gələcəyi Ə.i Kərimli ilə bağlıdır" təbliğatına start verdirdi. Xarici havadarlarından aldığı maliyyə dəstəyi ilə Elçibəyə qarşı təxribat kampaniyası aparan Ə.Kərimlinin yaratdığı AXCP daxilindəki "Yurd" fraksiyası isə tam səlahiyyətlərə nail olmaq üçün bir gediş idi. ASDP sədri Araz Əlizadə Ə.Kərimlinin satqınlıqda, xəyanətdə ittiham edib: "AXCP tarixində Ə.Kərimli qədər pozuculuq fəaliyyəti, Ə.Kərimli qədər Elçibəy əleyhinə gedən, bu məsələni təşkilatlanmış, mobil şəkildə təşkil edib, sonunda xəyanət yolu tutan ikinci bir adam olmayıb. Bu, faktdır, tarixdir. Bu, mənim şəxsi mövqeyim deyil. Bu, Ə.Kərimlinin fəaliyyətinin nəticəsi və adıdır". Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev bildirib ki, Ə.Kərimli fəaliyyəti boyu həmişə Qərb üçün alqısatqı obyekti olub. Onun sözlərinə görə, Ə.Kərimli bütün siyasi fəaliyyəti boyunca ancaq satılmaq işinə baxıb: "Əli Kərimli ancaq alqı-satqı cəmiyyəti qurub. Bu şəxsin mahiyyəti və xisləti məhz Qərbə satılmağa köklənib. Əli Kərimlini Azərbaycan daxilində heç kim saymasa da, o, bir çox beynəlxalq təşkilatların, qurumların əlində həmişə oyuncaq olub. Həmişə Azərbaycan dövlətinə qarşı çıxıb. Lakin bunu Azərbaycan hakimiyyətinə qarşı çıxmaq kimi ifadə edib. Bu gün hər şey ortalıqdadır. Onun ətrafında Qəddafiyə oxşayan Gözəl Bayramovadan, Azərbaycan iqtidarına xəyanət edən Gültəkin Hacıbəylidən və boşboş danışan Fuad Qəhrəmanlıdan başqa heç kim qalmayıb".

Bir sözlə, müxalifətin qarağüruh məxluqları hər cür vasitə və üsullarla xarici maraqlı dairələrin diqqət mərkəzinə çevrilməyə çalışırlar. Bu məsələdə, Ə.Kərimlinin daha çox canfəşanlıq etdiyi müşahidə edilir. Bütün bunlar isə, müxalifətin, o cümlədən, Ə.Kərimlinin indiki ağır və çətin dönəmdə bağışlanmaz xəyanətlərindən başqa bir şey deyil.

**İ.ƏLİYEV**

# Müxalifət çirkin oyunun icraçısına çevrilib

## *Mais Səfərli: "Müxalifətin aldığı rol olduqca iyrəncdir"*



Azərbaycan dövləti koronavirus epedemiyası ilə əlaqədar olaraq cəmiyyətin bütün təbəqələrini əhatə edən bir sıra sosial paketlər reallaşdırır. Bütün bunlar, ictimaiyyət tərəfində xeyirxahlıq və vətəndaşına göstərilən qayğı kimi qiymətləndirilir. Müxalifət isə yenə də, xarici və daxili qüvvələrin sifarişinə əsasən görülən işlərə kölgə salmaq üçün geniş formada şər-böhtan kampaniyası aparır. "Yurddaş" Partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında müxalifətin bu ağır dönəm də hay-küy qaldırmasını təxribatdan başqa bir şey olmadığını bildirib. Onun sözlərinə görə, bu gün koronavirus epidemiyası getdikcə dünyada daha çox geniş yayılır: "Azərbaycan da bu virusdan yan keçməyib. Yəni bizim ölkəmizdə də koronavirusa qarşı çox böyük bir mücadilə aparılır. Azərbaycanda koronavirusa qarşı aparılan dövlət səviyyəsində bu mübarizə virusun genişlənməsinin qarşısını almaqdadır. Çox sevindirici haldır ki, Azərbaycan dövləti başda Prezident İlham Əliyev olmaqla Onun atdığı addımlar və qəbul etdiyi bütün qərarlar, bu təhlükənin qarşısını xeyli alıb. Yəni əllərindən gələni edirlər ki, biz bu böyük bəladan az itiklərlə çıxaq".

M.Səfərli bildirib ki, aparılan sərt tədbirlər nəticəsində Azərbaycan bu gün İtaliyanın, İspaniyanın, Fransanın, ABŞ-ın vəziyyətinə gəlib çıxmayıb: "Belə bir ağır vaxtda acı təəssüf doğuran məsələlərdən biri odur ki, radikal müxalifət yenə də öz ampulasındadır, yenə də ənənəvi olaraq Azərbaycan dövlətinə qarşı çox ciddi çirkab kampaniyası aparır. Bu gün xaricdən maliyyələşən "söyüş qurup"larının üzvləri sosial şəbəkələr vasitəsilə Azərbaycana qarşı çirkab kampaniya aparırlar. Demək olar ki, Azərbaycana qarşı fəaliyyət göstərən şərböhtan şəbəkəsi bu gün daha geniş şəkildə pozuculuq işi aparılır ki, bu da bağışlanmaz xəyanətdən, satqınlıqdan başqa bir şey deyil. Müxalifətin aldığı rol olduqca iyrəncdir. Radikal müxalifət düşərgəsini təmsil edən həmin şəxslər sosial şəbəkələrdə ağızlarına gələni danışırlar. Belə ağır dönəm də radikal müxalifət təmsilçilərinin bu hərəkətlərindən əl çəkməməsi bunların anti-Azərbaycan şəbəkənin tərkib hissəsi olduğunu göstərir. Onların bu cür hərəkətləri tamamilə yanlış hərəkətdir. Yaxşı olardı ki, onlar bu cür əməllərindən əl çəksinlər. Bir insan öz siyasi məqsədləri üçün hər şeydən istifadə edirsə, bu mənəviyyatsızlıqdır. Belə olan halda, onları siyasətçi adlandırmaq olmaz".

**GÜLYANƏ**

## Sumqayıtda məişət tullantıları poliqonunda yanğın baş verib

Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə, Sumqayıt şəhərində məişət tullantıları poliqonunda yanğın olması barədə məlumat daxil olub. FHN-dən AZƏRTAC-a bildiriblər ki, dərhal nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri hadisə yerinə cəlb olunub. Hazırda yanğınsöndürmə işləri davam etdirilir. Əlavə məlumat veriləcək.

## Xüsusi karantin rejiminin pozulmasına görə 11 min 318 hərəkət iştirakçısı inzibati cərimələnib

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar aprelin 9-u saat 00:00-dan aprelin 10-u saat 00:00-dək olan müddət ərzində yol polisi əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat açıqlayıb. Baş Dövlət Yol Polisi İdarəsindən AZƏRTAC-a bildiriblər ki, ümumilikdə aprelin 1-dən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 11 min 318 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

## Sky News: Boris Conson mayın 10-dan tez işə çıxmayacaq

Sky News-in Britaniyanın nazirlər kabinetindəki mənbələri hesab edirlər ki, ölkənin siyasi lideri Boris Conson baş nazir vəzifəsinə mayın 10-dan tez çıxmayacaq. SİA xəbər verir ki, Conson mayın 10-dan tez işə çıxmayacaq. Hökumət başçısında koronavirusa yoluxma müəyyən olunduqdan sonra o xəstəxanaya aparılıb və sonradan reanimasiyaya yerləşdirilib. Həkimlər Consinun vəziyyətini stabilləşdiriblər və o dünən intensiv terapiyanın ardınca palataya köçürülüb. Qeyd edək ki, baş nazir vəzifəsini müvəqqəti icra edən hazırda xarici işlər naziri Dominik Raabdır.

## Virusoloq: "COVİD-19 mövsümi xəstəlik formatına keçəcək"

"Koronavirus infeksiyası da mövsümi xəstəliklər sırasına daxil olacaq". SİA-nın xəbərinə görə, bunu rusiyalı virusoloq Rinat Maksutov açıqlayıb. O bildirib ki, epidemiya başa çatacaq və pandemiya özü mövsümi xəstəlik formatına keçəcək. Onun sözlərinə görə, yeni növ koronavirus insanlarda artıq qrip virusu kimi yayılmağa başlayacaq. Virusoloq qeyd edib ki, bunun baş verməsi üçün dünya əhalisinin 50-60 faizi immun sistemini gücləndirməlidir. R. Maksutov qeyd edib ki, bu günə qədər koronavirusa yenidən yoluxmanı təsdiqləyən heç bir dəlil yoxdur".

# Erməni faşizmi bəşəriyyətə qarşı cinayət kimi

***Erməni faşizmi ümumən müxtəlif insan irqləri arasındakı bioloji fərqliliklərin mədəni və ya fərdi məsələləri də təyin etməsi lazım olduğuna və təbii səbəblərlə bir irqin (əksəriyyətlə öz irqinin) digərlərindən üstün olduğuna və digərlərinə hökm etməyə haqqı olduğuna duyulan inanc və ya bu dəyərləri qəbul edən doktrina olmuşdur. Bu gün də Ermənistanda məsələlərə faşist yanaşma vardır (Xüsusən, Dağlıq Qarabağ və digər Azərbaycan rayonlarının işğalından sonra ermənilər buradakı "qələbələrini" onların üstün irqdən gəldiklərinə bağlayırlar). Faşizm, bugün bu ölkədə ayrı-ayrı fərdlərə, bütün cəmiyyət mənsublarına təlqin edilir. Faşizm, diktator rejimlərini möhkəmlətmək üçün istifadə edilən ümumi bir termin olmazdan əvvəl, italyan milliyyətçiliyini təmsil edən bir ideologiya olaraq ortaya atılmışdır.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Bir zamanlar Mussolinin yaratdığı faşist təlimdən və onun kitablarından təsirlənən və faşizmi bir dünyagörüşü olaraq mənimsəyən erməni ideoloq Garegin Njde elə həmin illərdə erməni irqçi təlimi olan Tsexakronu hazırlamışdır. Daha sonra bunları almanlar mənimsəmişlər. Faşizm Hitlerin əsas ideoloji silahına çevrilmişdir. Elə həmin illərdə ermənilər də faşizmi mənimsəməyə başlamışlar. Avropada özlərinə nicat axtaran bir çox müharibə suçluları, "Daşnak" partiyasının tör-töküntüləri almanlardan bu ideyanı mənimsəmişlər. Özəlliklə Qarabağ və Zəngəzur canisi Garegin Njde alman faşizminə bənzər bir təlim ortaya atmışdır: Tsexakronizm. Bunun alman faşist "yeni nizam" anlayışına nə qədər bənzəri olduğu çox yaxşı araşdırılmışdır. Njdenin yaratdığı və bu gün də erməni cəmiyyətinin lokomotivi rolu oynayan Tsexakronizm 7 özündə nəyi ehtiva edir? Tsexakron təlimi aşağıdakı kimi inşa edilir: "Mən öz soyumu (tsex) bilirəm, mən öz nəslimə güvənirəm, mənim soyum Allaha daha yaxındır, ali irqdir, mən cismimdə Tsexarakonu daşıyıram". Bu cəhətdən Tsexakron faşizmlə eyniləşdiyini müəllif tutarlı dəlillərlə önə sürür. Ən önəmlisi odur ki, kitab hazırlanarkən erməni müəlliflərin yazdıqlarına daha çox üstünlük verilib. Ermənilərin 2-ci Dünya müharibəsi illərində faşist Almaniyası ilə əməkdaşlığı geniş şəkildə araşdırılmışdır. "Berlində Erməni İnqilabi Federasiyası-"Daşnaksütyun"un rəhbərlərinin bəziləri Abeğyanın sədrliyi ilə "Erməni Milli Şurası" yaradarkən də onu müsbət bir ideoloji kimi qiymətləndirmişdilər. Şura üzvləri Artaşes Gyulxandanyan (sədr müavini), Harutyun Baqdasaryan (katib), Qaregin Njde, Drastamat Kanayan (Dro), Vahan Papazyan (Koms) və başqaları idilər. Şura Nazist Almaniyasının SSRİ-nin işğal olunmuş Şərq rayonları nazirliyinin himayəsi altında fəaliyyət göstərirdi. Onun əsas məqsədi Qafqazda alman hakimiyyətini təmin etmək idi. Bunu gerçəkləşdirmək üçün alman ordusu içərisində erməni legionunun təşkil edilməsi şərt olaraq 8 ortaya qoyulmuşdu. Njde və Dro da bu legiona erməni əsirlərinin daxil edilməsini düşünmüşdülər. Bu iki keçmiş erməni komandan hərbi əsir düşərgələrini gəzir, erməni əsgər və zabitlərini xilas edib bu legiona daxil edirdilər. Ümumən 8-9 min əsgər toplamağa nail olmuşdular ki, 10 minlik bir erməni legionu qursunlar. Maraqlı idi ki, Reyxin üst təbəqəsində olan, Hitlerin sağ əli Herman Gerinq özünün "Yaşıl qovluq"unda faşist generallara bu işi reallaşdırmaq təlimatı vermişdi. Tarixin ironiyasıdır ki, 2016-cı il mayın 28-də Yerevanda 1944- cü ildə həbs edilərək 25 il azadlıqdan məhrum edilən və həbsxanada ölən bu faşistin -Qaregin Njdenin heykəlinin rəsmi açılış mərasimi keçirilib. Njde Böyük Vətən müharibəsi illərində SS-lərlə fəal əməkdaşlıq edib. 1942- ci ildə o, Vermaxtın tərkibində Qızıl Ordunun əsir düşmüş erməni əsgərlərindən ibarət hissələr yaradıb. 1942-ci il dekabrın 15-də almanlar tərəfindən təsis edilmiş "Erməni Milli Şurası"nın yeddi üzvündən biri Qaregin Njde olub. Njdenin rəhbərliyi altında Almaniyada yaradılmış hərbiləşdirilmiş erməni dəstələri Krımın işğalı və Qafqaza hücum əməliyyatlarında fəal iştirak ediblər. Bədnam "erməni legionu"nun yaradılmasında ona general Dro adı ilə məşhur olan Drastamat Kanayan kömək edirdi.

100 il ərzində arxiv materialları təkcə türklərə (azərbaycanlılara), gürcülərə, yəhudilərə, ləzgilərə və digərlərə qarşı deyil bütün bəşəriyyətə qarşı cinayət törətmiş erməni faşizminin cinayətlərini əsaslı şəkildə sənədləşdiyi mənbələr insan əzabından həzz alan faşist bir millətin psixoloqiya və adətlərinin tam xarakteristikasını aşkara cıxarır. Ermənilər yüz illər ərzində azərbaycanlıları bir millət kimi məhv etmək üçün dəqiq düşünülmüş, əvvəlcədən planlaşdırılmış, genişmiqyaslı məkrli planlar qurmuşlar: "Bütün Azərbaycan xalqının silahsız və baş verəcək faciələrdən xəbərsiz olduğunu bilən erməni faşistləri Bakıdan Göycə gölünə qədər azərbaycanlıların kütləvi qırğınına başladılar. Bundan başqa xristian dünyasının yardım etdiyi erməni başkəsənləri qarşılarına Qərbi (indi Ermənistan adlanan ərazi) və Şərqi Azərbaycanın bütün azərbaycanlıları məhv etməyə qarşılarına məqsəd qoydular. Məhz azərbaycanlıların silahsız olması erməni faşistlərinə böyük ərazilərdə cinləşməyə, sonra isə bütün müsəlman xalqlarını məhv etməyə, daha sonra isə bu əraziləri "əzəli erməni" torpaqları olan etməyə imkan verirdi. Erməni xalqının milli xarakterinin alcaqlığı ondadır ki, dinç əhaliyə qarşı tarixdə görünməmiş genosid aktı törədir qonşu ölkənin milli bayramını (Novruz bayramını) yasa cevirməkdən həzz alırlar".

XX əsr tamamilə sübut etdi ki, imperiya təfəkkürü bütövlükdə həqiqət və düzgünlüyü qəbul etməyə qabil deyildi. İmperiya təfəkkürü həqiqət və düzgünlüyü deyil, hakim sinfə faydalı olanları, əl verənləri qəbul edir. Orta əsrlərdən bəri heç vaxt XX əsrin sonu XXI əsrin əvvəllərinə qədər Qərb ölkələrinin siyasətində xristian fundamentalizmi bu qədər güclü olmamışdır. Məhz bunun sayəsində miliyonlarla müsəlmanın acısı, kədər və əzabları xristian siyasi xadimləri tərəfindən yad ağrısı, yad kədəri, yad əzabı kimi qəbul olunur. Ən dəhşətlisi odur ki, böyük dövlətlərin başçıları erməni faşizminin qurbanlarını avropalılar, amerikalılar, katoliklər, pravoslavlar və ya ateistlər kimi eyni hüquqlara malik olan müsəlmanlar olduğunu anlamaq qabiliyyətindən məhrumdurlar.

Şübhəsiz ki, dövlət başçısının ən yüksək məziyyəti müdrikliyə malik olmaqdır. Müdriklik, ağıl, zəka və ona əks olan əxlaqi keyfiyyətləri təhlil edərək müəllif belə qənaətə gəlir ki, bəşəriyyət müasir dövlət başçılarında müdrikliyin catışmadığını aydın hiss edir. Ə.İsmayilov çox doğru olaraq yazır: "Mən inanıram ki, əgər bəşəriyyət öz həyatlarından ağılsız dövlət rəhbərlərini cıxartsalar, güclü mənəvi və sosial tərəqqiyə böyük töhfə vermiş olarlar. Fransa prezidenti kimi dövlət başçıları ağılsız yalanlar əsasında ağılsız qərarlar verirlər. Belə ağılsız yalanlardan biri budur ki, 1 miliyon 200 min - 1 miliyon 300 min Osmanlıda yaşayan ermənilərin guya 2,5 miliyonu məhv edilmişdir". (Halbuki, onlardan 8 yüz mini ərəb ölkələrinə, 2 yüz mini Rusiyaya - Cənubi Qafqaza mühacir etmiş, qalanları isə 2-3 yüz min edir).

Fransa tarixdə iki dəfə Türkiyəyə müdaxilə etmişdir. Birinci dəfə Osmanlı dövlətinə basqın edən Fransa ermənilər silahlandırıb dinç müsəlman əhalisini məhv etmək üçün onların üzərinə göndərmişdir. İkinci dəfə XX əsrdə Fransa prezidentləri (Şirak ilə Sarkozi) parlamentdə türklərin əleyhinə qərar qəbul etdirmişlər. Əslində 1914-1915-çi il qırğınlarına Rusiya, Böyük Britaniya ilə birlikdə Fransada fəal iştirak etmişdir. Bütün bunları sadaladıqdan sonra Azərbaycan filosofu öz dəyərli məktubunda XIX əsrin sonlarında ermənilərin "böyük Ermənistan" dövləti yaratmaq həyata keçirmək planları qurduqlarını göstərir. Bu plana əsasən ermənilərin "Qərbi Ermənistan" adlandırdıqları əraziləri Cənubi Qafqazdakı İrəvan quberniyası ilə - guya "Şərqi erməni torpaqları ilə birləşməlidi. Bütün bunları həyata keçirmək üçün onlar Rusiya Türkiyə müharibəsinə ümid edirdilər. Onlar Rusiya qoşunları tərkibində Türkiyəyə qarşı vuruşur, "dinç erməni əhalisi" ilə arxada üsyan qaldırır, yerli türk və kürd əhalisini amansızlıqla məhv edirdilər. Onlar qoşunlarının imkanlarından istifadə edərək Türkiyənin bütün dinç əhalisini məhv etmək bu ərazilərin sahiblərinə çevrilmək istəyirdilər.

Erməni faşizmi italyan faşizminə deyil, alman faşizminə yaxındır. Əsas hədəfə çatmaq üçün ermənilər almanlara özlərini sırımağa çalışırdılar. Eyni irqdən olduqlarını isbatlayan dəlillər axtarmaları da uzun sürmədi. Hitlerin "irq dövləti" anlayışı Ermənistanda da eyni anlama gəlir. Bu gün Ermənistanda bir nəfər də olsun başqa qövmdən olan millət yoxdur. Faşizm odur ki, içindən bütün sevmədiklərinin ya fiziki məhvinə nail olur, ya da onları köləyə çevirir. Faşist "Yeni nizam" anlayışı ilə Njdenin "Tsexakron" təlimi arasında heç bir fərq yoxdur. Njdenin yaratdığı və bu gün də erməni cəmiyyətinin lokomotivi rolu oynayan Tsexakronizm özündə nəyi ehtiva edir? Tsexakron təlimi aşağıdakı kimi inşa edilir: "Mən öz soyumu (tsex) bilirəm, mən öz nəslimə güvənirəm, mənim soyum Allaha daha yaxındır, ali irqdir, mən cismimdə Tsexarakonu daşıyıram". Bu cəhətdən Tsexakron faşizmlə eyniləşir. Müasir dövrün qatı erməni faşisti Zori Balayan Qarabağda keçirilən bir toyda görün nə deyir: "...Allah Qarabağı qoruyacaqdır, çünki Allahın özü də erməni və qarabağlıdır" . Bu artıq faşizmdən də ötə bir şeydir. Sələfi Njde erməni soyunu "ari -ali irq" sayır, çağdaş faşist Balayan isə hətta Allahın da erməni olduğunu iddia edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı və təcavüz siyasətinin iki yüz ilə yaxın bir tarixi vardır. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "böyük Ermənistan" dövləti yaratmaq idi. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırmaq üçün müntəzəm surətdə ideoloji, hərbi və təşkilatı xarakterli iş aparılmış, tədbirlər həyata keçirilmiş, ən müxtəlif üsul və vasitələrdən istifadə edilmişdir. Xalqımızın tarixi kobud şəkildə saxtalaşdırılmış, maddi və mədəniyyət abidələrimiz, toponimlərimiz erməni tarixçiləri və "ideoloqlarının" təcavüzünə məruz qalmışdır. Onlar millətçiliyi və şovinizmi, qonşu xalqlara nifrət ideologiyasını əsas tutaraq "milli-mədəni", siyasi və hətta terrorçu təşkilatlar yaratmış, erməni diasporunun və lobbisinin imkanlarını bu məqsədlərə səfərbər etmişlər".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

11 aprel

## Supermodel karantində 15 kiloqram kökəldi



***Amerikalı aktrisa, teleaparıcı, model Tayra Benks karantin günlərində çəkisini 15 kiloqram artırıb. "Harper's Bazaar" jurnalına müsahibə verən model bununla kifayətlənməyərək, çəkisini daha da artırmaq fikrində olduğunu deyib. 46 yaşlı aktrisa gündəlik qidasından danışıb.***

O, səhərlər acqarına şəkərsiz tünd qəhvə, süd və sirop içir. Bundan başqa, onun menyusuna qaymaqlı-pendirli simit, qızardılmış basdırma və müxtəlif dadlı çipslər daxildir. Benks, həmçinin tez-tez yeməyi kənardan sifariş verdiyini, xüsusilə ənənəvi Meksika qidası olan takonu sevdiyini qeyd edib. Model, eyni zamanda, nə vaxtsa artıq çəkidən qurtulacağını deyib, amma bunun yaxın günlərə planlaşdırmadığını əlavə edib.

## Koronavirus Neymarı da "vurdu"



Koronavirus pandemiyasının klublara vurduğu iqtisadi zərbəyə görə Fransada futbolçuların maaşı azaldılacaq. Qol.az ESPN-ə istinadən xəbər verir ki, çempionatın yayımçı şirkəti olan "Canal+" və "beIN Sports"un klublara ödəmələri dayandırmasından sonra bununla bağlı hökumətə təklif göndərilib.

Fransa Peşəkar Futbolçular Assosiasiyası İqtisadiyyat və Maliyyə Nazirliyindən xahiş edib ki, futbolda mümkün maliyyə böhranından qaçmaq üçün oyunçuların maaşının müvəqqəti olaraq dərhal azadılması ilə bağlı qərar versin. Artıq tərəflər arasında bu məsələdə razılıq əldə edilib. Beləliklə, rəsmi qərardan sonra futbolçuların maaşında azalma faizi aşağıdakı kimi olacaq:

Ayda 10 min avroyadək maaş alan oyunçular - azaldılmayacaq

Ayda 10-20 min avro alan oyunçular - 20 faiz

20-50 min avro alan oyunçular - 30 faiz

50-100 min avro alan oyunçular - 40 faiz

100 mindən çox avro alan oyunçular - 50 faiz

Beləliklə, qərar təsdiqlənəcəyi halda bundan ən çox Fransa Liqa 1-in ən bahalı oyunçusu (illik 31,6 milyon avro) Neymar ziyan çəkəcək. Onun maaşı yarıbayarı azaldılacaq.

## "Barselona" rəhbərliyində kütləvi istefa



"Barselona" rəhbərliyində istefalar reallaşıb. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, İdarə Heyətinin 6 üzvü vəzifəsindən ayrılıb. Bunlar vitse-prezidentər Emili Ruso, Enrike Tomas, direktorlar Silvio Elias, Mariya Teyşidor, Jozef Pont və İdarə Heyətinin katibi Jordi Klasamilyadır. Onların koronavirus pandemiyası dövründə klubun idarə edilməsində problem yarandığı və buna görə də "Barselona"nın prezidenti Jozep Bartomeu ilə aralarında münaqişə olduğu üçün istefa verdikləri bildirilir. Həmçinin, istefanın səbəbi kimi sosial şəbəkələrdə kapitan Lionel Messinin tənqid olunması barədə işlər də göstərilib.

Qeyd edək ki, "Barselona"da koronavirus pandemiyasının yaratdığı böhrana görə, futbolçuların maaşlarının 70 faizi kəsilib.

## Mingəçevirdə ölümlə nəticələnən yol qəzası olub



Mingəçevirdə ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Mingəçevir şəhəri ərazisində şəhər sakini R.Səfərovun idarə etdiyi "Mercedes" və Gədəbəy rayon sakini H.Hüseynovun idarə etdiyi "KamAZ" markalı avtomobillər toqquşub, zərbədən H.Hüseynov idarəetməni itirərək yolun hərəkət hissəsində velosiped sürən şəhər sakini Elman Abdulovu vurub. Nəticədə E.Abdulov və R.Səfərov xəstəxanaya yerləşdiriliblər, velosipedçi orada ölüb. Hadisə ilə bağlı Mingəçevir Şəhər Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

## Keçmiş məhkum iki evdən 14 min manatlıq qızıl əşyaları oğurlayıb



Şəmkirdə bir neçə evdən oğurluq edən keçmiş məhkum tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayon ərazisindəki 2 evdən ümumilikdə 14.000 manat dəyərində qızıl-zinət əşyaları və 850 manat oğurlamaqda şübhəli bilinən Çinarlı qəsəbə sakini, əvvəllər məhkum olunmuş N.Kərimov Şəmkir Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı araşdırmalar davam etdirilir.




## Dünyada koronavirusa yoluxanların sayı 1,6 milyonu ötüb

***ABŞ-ın Johns Hopkins Universitetinin apardığı hesablamalara görə, dünyada koronavirus infeksiyasına yoluxanların sayı 1,6 milyonu keçib.***

SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, universitetin hesablamalarında son məlumatlara görə, dünyada COVİD-19-dan ölənlərin sayı 95,699 nəfər olub. Sağalanların sayı isə 355 minə yaxınlaşır. Bununla yanaşı, universitet ÜST-nin COVİD-19 virusu ilə bağlı ilk xəbərdarlığından artıq 100 gün keçdiyini açıqlayıb.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**